# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 43 (3509) Cümə axşamı / 30 noyabr - 6 dekabr 2023-cü il Qiymәti 40 qәpik


# Vaşinqtonun "U" dönüşü

**_Son günlərdə ABŞ-Azərbaycan münasibətlərində yaşanan soyuqluq, daha doğrusu, Vaşinqtonun ölkəmizə qarşı əsassız iddiaları və təzyiqləri səbəbindən kölgə düşən münasibətlərdə yeni gəlişmələr müşahidə edilir. Noyabrın 27-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı Prezident İlham Əliyev qeyd edib ki, ABŞ tərəfindən Azərbaycanla bağlı son bəyanatlar və atılan addımlar Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərər vurub. Dövlət başçısı 2023-cü il noyabrın 15-də ABŞ Dövlət katibinin köməkçisi Ceyms o'Braynın Nümayəndələr Palatası Xarici İşlər Komitəsi Avropa üzrə alt komitəsinin dinləmələrində ölkəmizlə bağlı səsləndirdiyi fikirlərin qərəzli olduğunu, həqiqəti əks etdirmədiyini və Azərbaycan tərəfindən rədd edildiyini bildirib._**



"

*Prezident ABŞ-nin Azərbaycana qarşı apardığı ikilistandartlı siyasətə nöqtə qoydu*

*Azərbaycan xarici siyasətində tamamilə fərqli, bərabərhüquqlu, özünə və və özgələrinə qarşı hörməti ehtiva edən bir siyasət formalaşdırıb*

*Vaşinqton həqiqətən regionda sülhün yaranmasında maraqlıdırsa, Ermənistana təzyiq etməlidir*

Azərbaycan tərəfinin ABŞ-nin Azərbaycana münasibətdə yüksəksəviyyəli ikitərəfli görüş və təmasları təxirə salması və "ikitərəfli münasibətlərimizdə "əvvəlki kimi" ola bilməz" bəyanatını nəzərə aldığı, bunu adekvat cavablandırdığı vurğulanıb. Prezident İlham Əliyev Azərbaycan Xarici İşlər Nazirliyinin noyabrın 16-da bununla əlaqədar açıqlama verdiyini, Azərbaycan tərəfinin də öz növbəsində ABŞ-dən olan yüksəksəviyyəli səfərləri ləğv etdiyini xatırladıb.

Dövlət katibi Blinken münasibətlərin normallaşdırılması məqsədilə dekabrda ABŞ Dövlət katibinin köməkçisi Ceyms o'Braynın Azərbaycana səfərinə icazə verilməsini xahiş edib. Prezident İlham Əliyev həmin təkliflə bir şərtlə razılaşıb ki, bu səfərdən sonra Azərbaycanın yüksəksəviyyəli rəsmilərinin ABŞ-yə səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılsın. Dövlət katibi Blinken bunu qəbul edib.

Bununla yanaşı, qeyd olunub ki, sülh müqaviləsinin mətni ilə bağlı Azərbaycan tərəfinin 2023-cü il sentyabrın 11-də Ermənistana təqdim etdiyi təkliflər Ermənistan tərəfindən noyabrın 21-də cavablandırılıb. Beləliklə, Ermənistan öz cavabını 70 gün gecikdirib. Yetmişgünlük gecikdirmə bir daha nümayiş etdirir ki, Ermənistan sülh müqaviləsinin mətnindən danışıqlar prosesini uzatmaq üçün bəhanə kimi istifadə edir. Danışıqlar zamanı tərəflər, həmçinin noyabrın 30-da Azərbaycan-Ermənistan şərti sərhədində keçiriləcək dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların növbəti görüşünə dair fikir mübadiləsi aparıblar.

Göründüyü kimi, Cənubi Qafqazı bütövlükdə özünün çətiri altına salmağa çalışan ABŞ-nin bu regionda əsas oyunçu olan Azərbaycanı hədəfə alması regionda yeni təhdid elementi kimi dəyərləndirilməklə yanaşı, birmənalı qarşılanmırdı. Təhdidlərlə Azərbaycanı qorxudacağını zənn edən ABŞ, nəhayət, onunla öz dilində danışmağı bacaran tərəflə qarşılıqlı münasibətlərin tənzimlənməsi istiqamətində yeni manevr imkanlarını da sınaqdan keçirmiş oldu. ABŞ-nin Dövlət katibi Blinkenin Azərbaycan Prezdentinə zəngi, etdiyi xahişlər adekvat reaksiya ilə qarşılanmaqla ikitərəfli münasibətlərin normallaşmasına yeni şans tanıdı. ABŞ dövlət katibi Azərbaycan Prezidentinə etdiyi telefon zəngindən sonra ikitərəfli münasibətlərin normallaşması üçün regional siyasətində hansı korrektələri etməli olduğunu anladımı?

■ **Milli Məclisin deputatı Arzu Nağıyev bildirib ki, bu telefon danışığı bir daha Azərbaycanın müstəqil daxili və xarici siyasət yürütdüyünü təsdiq etdi. Onun sözlərinə görə, Prezident İlham Əliyev ABŞ-nin məhz son vaxtlar Azərbaycana qarşı apardığı ikilistandartlı siyasətə nöqtə qoydu:** "Bu gün Dövlət Departamentinin nümayəndəsinin Azərbaycana gəlişi məsələsi artıq bizim xarici, daxili siyasətimizdən asılıdır. Bizimlə bir tərəfdaş müstəvisində danışılmalı, bizə diqtə ilə nəyi, necə etməni göstərmək olmaz. Buna görə də cənab Prezidentin Blinkenlə danışığı çox mühüm əhəmiyyət kəsb edir. Bu, bir daha bizim suveren, daxili, xarici siyasətdə müstəqil bir dövlət olduğumuzu dünyaya göstərir".

"

*ABŞ məhz Ermənistanın gündəliyi əsasında sülh müqaviləsinin imzalanmasında maraqlı idi*

*ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller tərəfindən yayımlanan açıqlama beynəlxalq siyasi-diplomatik nöqteyi-nəzərdən vacib elementdir*

■ **Deputat Sevil Mikayılova hesab edir ki, Birləşmiş Ştatların baş katibi Entoni Blinkenin Azərbaycan Prezidentinə zəng edərək dövlət başçısının səsləndirdiyi şərtləri qəbul etməsi bir daha göstərir ki, Azərbaycanla təhdid dilində danışmaq olmaz.** S.Mikayılova bildirib ki, bir müddət əvvəl ABŞ rəsmisi Ceyms O Brayn tərəfindən Senatda səsləndirilmiş Azərbaycana yönəlik qərəzli fikirlər, eyni zmanda dinləmələrin sonunda Azərbaycan rəsmilərinə bir sıra məhdudiyyətlərin qoyulması ilə bağlı təklif, "907"ci düzəlişin tətbiqinin bərpası ilə bağlı qərarlar ölkə ictimaiyyəti tərəfindən çox böyük təəssüflə qarşılandı: ▸▸ Səh. 2

MÜSAHİB

## Paşinyan fransız generalını özünə müşavir götürüb



**Üzeyir Cəfərov,**
hərbi ekspert

***Regionun geosiyasi mənzərəsi Azərbaycanın bölgədə yaratdığı yeni reallığa uyğun olaraq qurulur. Regionda marağı olan güclər mövcud sakitliyi pozmaq üçün çapalar göstərir, bölgədə cərəyan edən proseslərə yan müdaxilələr edərək, təzyiqi artırmaqla gündəmi ələ almağa çalışırlar. 44 günlük savaş və daha sonra birgünlük antiterror əməliyyatından keçən vaxtdan bu yana xarici qüvvələrin Ermənistanı silahlandırıb, qızışdırıb güc və təhdidlərinin nümayişi üzərindən regionu hələ də hərbi təhlükəyə ata biləcəyi ehtimalını yaradırlar.***

*Bu üç ölkə bir yerdədirsə, regionda hər hansı təhlükənin olacağını düşünmürəm*

▸▸ Səh. 3

MÜSAHİB



**Aqil Məmmədov,**
Milli Məclisin deputatı

"

■ Ağdərə rayonunun yenidən bərpası ilə əlaqədar heç bir rayonun ərazisi birləşdirilmir

■ Xankəndinin azərbaycanlılarla məskunlaşdırılmasında heç bir problem görmürəm

■ Azərbaycan həmişə qonşuluq siyasətini yüksək səviyyədə qurmağa çalışan tərəfdir ▸▸ Səh. 5

GÜNÜN FOTOSU...



**Qəzza atəşkəsdən sonra...**

GÜNÜN SİTATI



"

*Selektiv abortlar baş alıb gedir, heç nə edə bilmirik*

"

**Əhliman Əmiraslanov,**
Milli Məclisin Səhiyyə komitəsinin sədri

KARİKATURA



**Sülh quşu müharibə bölgəsində**

"

## Ermənistanda vətəndaş müharibəsi təhlükəsi realdır

**Tahir Cəfərli,**
siyasi analitik

Ermənistanla Sülh sazişi imzalanana qədər sülhməramlıların orada qalması indiki dövrdə Azərbaycanın marağındadır. ▸▸ Səh. 3

STATİSTİKA



■ **Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, 2023-cü ilin yanvar-oktyabr aylarında Azərbaycan Respublikasına dünyanın 186 ölkəsindən 1723,6 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 30,3 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.**

Gələnlərin 30,7 faizi Rusiya Federasiyası, 17,9 faizi Türkiyə, 7,7 faizi İran, 5,1 faizi Hindistan, 4,8 faizi Gürcüstan, 4,1 faizi Səudiyyə Ərəbistanı, 2,8 faizi Qazaxıstan, 2,5 faizi Pakistan, 1,9 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,8 faizi Özbəkistan, 1,6 faizi İsrailin vətəndaşları olmuşdur. Gələnlərin 69,9 faizini kişilər, 30,1 faizini qadınlar təşkil edib.



▸▸ Səh. 7

## Əmlak bazarında qaydaları dəyişən qərar

## PREZİDENTİN İŞ GÜNÜ

### Sərəncam



**Prezident İlham Əliyev Suqovuşan? Kəlbəcər (9 km)? Ağdərə? Ağdam avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.** Sərəncama əsasən, otuz üç kilometr uzunluğu olan Suqovuşan? Kəlbəcər (9 km)-Ağdərə-Ağdam avtomobil yolunun yenidən qurulması məqsədilə 4,5 milyon manat Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## Prezident DTX-nin yeni inzibati binalarının açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin yeni inzibati binalarının açılışında iştirak edib. Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.**

Dövlət başçısına məlumat verildi ki, inşasına 2021-ci ilin martında başlanmış inzibati binaların tikintisi bu ilin avqustunda yekunlaşıb. İnşaat işləri müasir standartlara uyğun aparılıb, binalar bütün zəruri avadanlıq və inventarlarla təmin olunub, burada əməkdaşların xidməti fəaliyyətlərini səmərəli həyata keçirmələri üçün hər cür şərait yaradılıb.

Əvvəlcə foyedə quraşdırılmış monitorda son illər ərzində Dövlət Təhlükəsizliyi Xidmətinin səviyyəsini və tarixini simvolizə edən muzeydə sərgilənən eksponatlara baxıb. Qeyd edildi ki, binada Dövlət Təhlükəsizliyi Xidmətinin mərkəzi aparatının bəzi struktur bölmələrinin yerləşdirilməsi nəzərdə tutulur. Bina iş və iclas otaqlarından, rəhbər və şəxsi heyət üçün ikimərtəbəli yeməkxanadan ibarətdir.

Dövlət başçısı xidməti otaqlarla və burada əməkdaşlar üçün yaradılan şəraitlə yaxından tanış olub. Ali Baş Komandan İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı dəstəsinin istifadə etdiyi xüsusi vasitələrə, silahlara, avadanlıqlara, dron cihazlarına və xüsusi təyinatlı avtomobillərə də baxış keçirib.

Həmçinin Azərbaycan Prezidentinə digər inzibati binada yerləşən və ən son texnoloji ye-



nin mərkəzi aparatında və ərazi orqanlarında aparılan əsaslı tikinti-quruculuq işlərindən bəhs edən videoçarx nümayiş olunub. Bildirildi ki, binanın giriş hissəsində Ümummilli Lider, Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, bu orqanların inkişafında müstəsna xidmətləri olan Heydər Əliyevin barelyefi qoyulub, Ulu Öndərin arxiv sənədlərinin nümayiş olunduğu guşə və dahi şəxsiyyətin mənalı ömrünün 25 ilini həsr etdiyi təhlükəsizlik orqanlarındakı fəaliyyətini əks etdirən fotoşəkillərdən ibarət stend yaradılıb.

Sonra dövlət başçısı xarici xüsusi xidmət orqanları ilə qurulan tərəfdaşlıq münasibətlərinilikləri özündə birləşdirən kriminalistika, əməliyyat və şəbəkə idarəetmə mərkəzləri təqdim olunub, cinayət işlərinin təhqiqatı və müvafiq əməliyyat tədbirlərinin həyata keçirilməsi istiqamətində bu mərkəzlərin imkanları barədə məruzə edilib.

Prezident İlham Əliyev şəxsi heyətin fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmış və müasir idman avadanlıqları ilə təchiz edilmiş mərkəzlə də yaxından tanış olub. Sonda Prezident İlham Əliyev şəxsi heyətə xidməti fəaliyyətlərində uğurlar arzulayıb, əməkdaşların öz vəzifələrini bundan sonra da layiqincə yerinə yetirəcəklərinə inamını ifadə edib.

HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor: Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Vaşinqtonun "U" dönüşü

## Gündəm

◂ əvvəli 1-ci səhifədə




"Azərbaycanla Birləşmiş Ştatlar arasında uzunillik əməkdaşlıq əlaqələri mövcud olub. Bu illər ərzində kifayət qədər etibarlı tərəfdaş kimi Birləşmiş Ştatlarla əməkdaşlıq etmişdik. Nəyə görəsə bu gün bölgədə fərqli reallıqların mövcud olduğu bir dönəmdə, yəni Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra Birləşmiş Ştatlar Cənubi Qafqazla bağlı öz gündəliyini dəyişir və Ermənistanı birtərəfli qaydada müdafiə etməklə, ona havadar çıxmaqla, Azərbaycanın hüquqlarını pozmaq kimi strategiya seçdi.

Təbii ki, bu, Azərbaycan tərəfindən qəbul edilə bilməzdi. Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən buna qarşı dərhal etiraz səsləndirildi. Biz düşünürük ki, bu cür qərarlara qarşı təpkili münasibətin olması qarşı tərəfi bir növ öz hərəkətlərinə təkrar-təkrar baxmağa və hansısa bir qərarı qəbul etməzdən əvvəl onun üzərində ciddi şəkildə işləməyə vadar edəcək. Biz ümumən dövlətimizin iradəsi, Prezidentin hər zaman milli maraqları qoruyaraq beynəlxalq platformalarda çox qətiyyətli çıxış edərək dövlətimizin daha da güclənməsinə və nüfuzunun artmasına xidmət etdiyini əminliklə söyləyirik. Son baş verən proses də göstərdi ki, Azərbaycanın yolu müstəqillik yoludur, biz bu yoldan dönməyəcəyik. Azərbaycan öz xarici siyasətində tamamilə fərqli, bərabər hüquqlu, özünə və və özgələrinə qarşı hörməti ehtiva edən bir siyasəti formalaşdırıb. Uzun illərdir bu siyasəti irəliyə aparır. Bundan sonra da bu təcrübəyə əsaslanaraq beynəlxalq tərəfdaşlarımız bu və ya digər şəkildə qərar qəbul edəndə ilk növbədə Azərbaycan tərəfinin hüquqlarını məhdudlaşdıran deyil, beynəlxalq hüquqa söykənən və reallığı əks etdirən sənədlərin qəbul olunmasına çalışmalıdırlar".

■ **Politoloq Rəşad Bayramov hesab edir ki, ABŞ Dövlət katibi Blinkenin Azərbaycan Prezidentinə zəngi rəsmi Vaşinqtonun Bakıya münasibətdə öz ədalətsiz siyasətini düzəltmək cəhdindən irəli gəlmir.** Bu ədalətsiz mövqe uzun illərdir davam edir və 30 illik danışıqlar dövründə də Azərbaycana qarşı haqsız "907"ci düzəlişin qəbul olunduğu vaxtlarda da, bunun əyani şahidi olmuşuq.

Politoloq bu qənaətdədir ki, ABŞ sadəcə olaraq Azərbaycanla təhdid və şantaj, sanksiyalar tətbiq etmək hədəsi ilə danışmağın mənasız olduğunu başa düşdüyü üçün münasibətləri yumşaltmağa qərar verib: "ABŞ Senatının məlum qərarından sonra rəsmi şəxslərin qarşılıqlı səfərlərinin ləğvi Vaşinqtonu narahat edib. Özünün Cənubi Qafqaz maraqlarını regionun ən güclü dövləti olan Azərbaycan olmadan təmin etməyin mümkünsüzlüyünü anlayan ABŞ, hətta istəməsə də, Blinken səviyyəsində Azərbaycan Prezidentinə müraciət etmək məcburiyyətində qalıb. Blinken münasibətlərin normallaşması üçün dekabr ayında dövlət katibinin köməkçisi Ceyms O Braynının Azərbaycana səfərinə icazə verilməsinə xahiş edib və məlum olduğu kimi, Prezident İlham Əliyev də Azərbaycanın yüksək səviyyəli rəsmilərinin ABŞ-a səfəri ilə bağlı qoyulan əsassız qadağaların aradan qaldırılması şərti ilə O Braynın səfərinə razılıq verib".

R.Bayramov hesab edir ki, Blinkenin zəngi, münasibətlərin normallaşmasını istəməsi, təbii ki, ABŞ üçün, Azərbaycan üçün müsbət addımdır. Münasibətlərin hansı səviyyədə normallaşacağını isə zaman göstərəcək. Əgər ABŞ bundan sonra Senatın anti-Azərbaycan qərarını təsdiq etməkdən imtina edəcəksə, ayrı-ayrı platformalarda Azərbaycan əleyhinə bəyanatlara son veriləcəksə, demək münasibətlərin normallaşmasında həqiqətən də maraqlıdırlar. Yox, bu baş verməsə nəticə olduğu kimi qalacaq.

"Bizim kiminsə istəkləri ilə öz dövlət maraqlarımızdan imtina etməyimiz mümkün deyil. Azərbaycan olaraq dünyanın supergücü ilə qarşıdurmada maraqlı deyilik. Amma bu, ABŞ-ın hər dediyinə "baş üstə" demək anlamına da gəlməməlidir. Əgər rəsmi Vaşinqton həqiqətən regionda sülhün yaranmasında maraqldırısa, o zaman müxtəlif bəhanələrlə sülh sazişindən yayınan Ermənistana təzyiq etməlidir. Ancaq bu halda ABŞ-ın həqiqətən də prosesə töhvə vermək istəməsini, regionda sülh yaratmaq istəyini deyə bilərik".

■ **Siyasi şərhçi Məhəmməd Əsədullazadə bildirib ki, ABŞ dövlət katibi Entoni Blinkenin Azərbaycan Prezidentinə zəngi Vaşinqtonun Ermənistan-Azərbaycan arasında sülh danışıqlarının növbəti mərhələyə başlamaq istəyi ilə bağlıdır.**

"Göründüyü kimi, ABŞ Konqresində dinləmələrdə Azərbaycana qarşı siyasi qadağalar tətbiq edilmişdi. ABŞ tərəfindən bu qadağa aradan götürüldü və tərəflər arasında müəyyən razılığa gəlindi. Bu onu təsdiq edir ki, bu danışıqlarda ABŞ Azərbaycanın prinsipial mövqeyinin şahidi oldu. Azərbaycan bununla sübut etdi ki, geri çəkilməyəcək". M.Əsədullazadə eyni zamanda qeyd edib ki, ABŞ məhz Ermənistanın gündəliyi əsasında sülh müqaviləsinin imzalanmasında maraqlı idi. Onun sözlərinə görə, ABŞ növbəti görüşün Vaşinqtonda keçirilməsi və özünün vasitəçiliyini gündəmə gətirməyə çalışır.

"Əgər ABŞ tərəfi Azərbaycanın 5 təməl prinsipini rəhbər tutan danışıqlara razılıq verəcəksə, Azərbaycan bu danışıqlara qatıla bilər. Sülh müqaviləsi də bu istiqamətdə bağlanmalıdır. Eyni zamanda ABŞ gördü ki, Azərbaycan regionun aparıcı ölkəsidir, Azərbaycansız regionda güclənmək mümkün deyil. Azərbaycanla münasibətləri qorumaq lazımdır. Azərbaycanla bağlı reallığı ABŞ-da başa düşürlər".

■ **Siyasi ekspert Vüqar Dadaşov hesab edir ki, son dövrlərdə ABŞ-Azərbaycan münasibətlərinin Vaşinqton tərəfindən gərginləşdirilməsi məqsədli şəkil daşıyırdı və siyasi hədəflərə hesablanmışdı.** V.Dadaşov qeyd edir ki, ABŞ-nin Azərbaycana qarşı siyasəti heç bir zaman isti olmayıb. Hərçənd, ABŞ Rusiyaya qarşı və ümumiyyətlə Şərqə, Cənubi Qafqazla bağlı niyyətlərini həyata keçirmək üçün Azərbaycanla diplomatik və balanslaşdırılmış siyasət görünüşü yaratmağa çalışıb.

"ABŞ Senatının Xarici Əlaqələr Komitəsində Qarabağdakı vəziyyətlə bağlı ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Yuri Kim-in ən azı bu ilin sentyabr ayından başladığı açıq anti-Azərbaycan ritorikası təbii ki, həmin dövrdə ABŞ-ın daha yüksək şəxsləri ilə razılaşdırılmış prosesin daha sərt siyasi-diplomatik təzyiqlərə keçidinin əlamətləri idi. ABŞ-ın Azərbaycana qarşı təzyiqlərini tədricən daha da sərtləşdirməsi gözlədiyi effekti vermədi. Xüsusən də HƏMAS-İsrail müharibəsindən sonra Azərbaycanın tərəflərə qarşı balanslı münasibətinin müəyyən mənada İslam təəssübkeşliyi ağırlığı, ABŞ-ni Azərbaycana qarşı daha da qıcıqlandırdı". Ekspert hesab edir ki, ABŞ Azərbaycanla münasibətlərin daha da gərginləşməsinə getməyəcək. Onun fikrincə, Cənubi Qafqazın aparıcı dövləti, Türkiyənin müttəfiqi, Avropanın enerji təhlükəsizliyinin vacib faktoru, İslam Əməkdaşlıq Təşkilatının, Türk Dövlətləri Birliyinin üzvü, Qoşulma Hərəkatının lideri kimi və Rusiya-Azərbaycan münasibətlərinin perspektivləri ABŞ-ı Azərbaycana qarşı çox diqqətli olmağı şərtləndirir.

Onun fikrincə, ABŞ-nin Azərbaycanla münasibətini normallaşdırmaq üçün addım atacağı gözlənilən idi. Eləcə də noyabrın 27-də ABŞ Dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevə zəng etməsi barədə məlumatın birinci olaraq ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller tərəfindən yayımlanası beynəlxalq siyasi-diplomatik nöqteyi nəzərdən vacib elementdir.

"ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında olan danışıqlarının Azərbaycan tərəfinin tələblərinin qəbul edilməsi ilə yekunlaşması, Azərbaycan dövlətinin nüfuzunun göstəricisidir. Azərbaycan dövləti sahib olduğu nüfuzunu iqtisadi, hərbi, siyasi-diplomatik çalışmaları ilə əldə edib. Artıq Azərbaycan dövləti nəinki regionun lideri, eyni zamanda da beynəlxalq arenada təsirli mövqeyi ilə sözü keçən və hesablaşmalı olan dövlətdir. ABŞ kimi dövlətin Azərbaycan maraqları ilə hesablaşması və ilk addım atması Azərbaycanın milli maraqlarının qəbulunun məcburi etirafıdır.

Dövlətin böyüklüyü, qüdrətli olması təkcə iqtisadi, hərbi gücü ilə bağlı deyil. Əlbəttə ki, olduqca ağır çəkiyə malik iqtisadi və hərbi güc imkanları asılı olmayan iqtisadi, suveren hərbi texniki potensiala bağlıdır. Azərbaycan hərbi-texniki sənayesini müstəqil şəkildə öz daxili potensialı hesabına gücləndirməsi, onun öz maraqlarını daha da israrla müdafiəsinə imkanı genişləndir.

Azərbaycan dövlətinin tələblərinin özünü dünya hegemonu hesab edən ABŞ tərəfindən qəbul edilməsi siyasi-diplomatik uğur kimi, ölkənin iqtisadi, hərbi təhlükəsizliyinə, elmi-texniki inkişafa əsaslanan hərbi sənayeyə və digər xarici asılılığı aradan qaldıran imkanlara söykənən nəticədir".

✍ *Tahirə Qafarlı*

# "Yeni media mühitində təhsil və məşğulluq imkanları"

***Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "MEDİA-lab" layihəsi çərçivəsində "Yeni media mühitində təhsil və məşğulluq imkanları" adlı hesabat konfransı keçirilib. Konfransın açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov dünya miqyasında rəqəmsal texnologiyaya sürətli keçidinin, iqtisadiyyatın bütün ənənəvi sahələrində olduğu kimi media sahəsində də innovasiya və texnologiyaların tətbiqinin və ən əsası bunu bacara bilən kadrların hazırlanmasının zəruriliyini qeyd edib.***






O bildirib ki, "MEDİAlab" layihəsinin fəaliyyət planının tədris proqramına uyğunlaşdırılması məqsədilə layihənin tərəfdaş universitetlərində təhsil alan 1000-ə yaxın tələbə arasında keçirilən sorğu nəticələrinin data əsaslı təhlili, media subyektləri ilə davamlı iş və çoxtərəfli kommunikasiya əsasında inkişafla bağlı hiss edilən ehtiyaclar, media sahəsində məşğulluqla bağlı həm yerli, həm də beynəlxalq tendensiyaların müqayisəli analizi və gənclərə məşğulluq imkanlarının yaradılmasının beynəlxalq təcrübədə verdiyi müsbət nəticələr bir daha gənclərə və gələcəyə ümidli olmağa əsas yaradır. Əhməd İsmayılov vurğulayıb ki, bu günki gündə qısa bir müddətdə layihə çərçivəsində əldə edilən uğurlar və növbəti mərhələdə bu sahədə təcrübə və məşğulluq imkanları ilə bağlı daha təkmil mexanizmlərin hazırlanması məqsədilə imzalanan Çoxtərəfli Əməkdaşlıq Memorandumu hər bir tərəfdən prosesin dəstəklənməsi və ümumi yanaşmanın uyğunluğunun göstəricisidir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli media sahəsində işəgötürənlərə dəstək xidmətinin əhatə dairəsinin genişləndirilməsi, eyni zamanda, bu istiqamətdə davamlı tədbir və proqramların təşkili məqsədilə imzalanan Çoxtərəfli Əməkdaşlıq Memorandumu haqqında öz fikirlərini bölüşüb.

Konfrans zamanı "MEDİAlab" layihəsi çərçivəsində təşkil edilən tədbirlərdən görüntülərin əks olunduğu videoçarx nümayiş olunub. Sonra Medianın İnkişafı Agentliyinin "Media dəstək layihələri və strateji planlaşdırma" şöbəsinin müdiri Ləman İsgəndərova çıxışı zamanı layihə haqqında ətraflı məlumat verərək "MEDİAlab" layihəsi çərçivəsində 1 il ərzində həyata keçirilən tədbirlər və əldə olunan nəticələrlə bağlı təqdimatla çıxış edib.

Təqdimatın tərkibində "MEDİA-lab" layihəsinin məqsədləri, iş mexanizmləri, gənclərin müvafiq sahədə inkişafı üçün yaradılan imkanlar və nəzərdə tutulan fəaliyyət istiqamətləri əhatə olunub. Tədbir çərçivəsində istedadlı və təşəbbüskar gənclərin seçilməsi, müvafiq istiqamətlər üzrə potensial kadrların müəyyənləşdirilməsi məqsədilə ilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı sayəsində təşkil edilən "Kreativ Media - Bakı" adlı məzmun müsabiqəsinin nəticələri açıqlanıb, qalib seçilən 20-ə yaxın gəncə mükafatlar təqdim edilib.

Konfransın sonunda layihənin əsas tərəfdaşları olan ali təhsil müəssisələrindən əlaqələndirici şəxslərə ümumi layihənin təşkilində göstərdikləri dəstək, bu sahənin inkişafına verdikləri töhfəyə və səmərəli əməkdaşlığa görə, layihə çərçivəsində seçilən MEDİA səfirlərinə isə fəal iştiraklarına görə təşəkkürnamələr təqdim edilib.

Qeyd edək ki, "MEDİAlab" layihəsinin əsas məqsədi media sahəsində innovasiya və inkişaf yönümlü fəaliyyətin davamlılığının təmin edilməsi, təhsil prosesində ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyasının dəstəklənməsi, texnoloji transformasiya zəncirinin əsas halqalarından olan insan resurslarının inkişafı üçün müvafiq sahədə kadr potensialının artırılması, media subyektləri və ali təhsil müəssisələri arasında qarşılıqlı fəaliyyət və əməkdaşlığın genişləndirilməsinə dəstək göstərilməsi, gənclərə rəqəmsal media bacarıqlarının təkmilləşdirilməsi üçün əlverişli ekosistemin yaradılmasıdır.

# Paşinyan fransız generalını özünə müşavir götürüb

***Regionun geosiyasi mənzərəsi Azərbaycanın bölgədə yaratdığı yeni reallığa uyğun olaraq qurulur. Regionda marağı olan güclər mövcud sakitliyi pozmaq üçün çapalar göstərir, bölgədə cərəyan edən proseslərə yan müdaxilələr edərək, təzyiqi artırmaqla gündəmi ələ almağa çalışırlar. 44 günlük savaş və daha sonra birgünlük antiterror əməliyyatından keçən vaxtdan bu yana xarici qüvvələrin Ermənistanı silahlandırıb, qızışdırıb güc və təhdidlərinin nümayişi üzərindən regionu hələ də hərbi təhlükəyə ata biləcəyi ehtimalını yaradırlar. Əslində, bu gün regionda nələr baş verir? Bu barədə hərbi ekspert Üzeyir Cəfərovla gündəmi dəyərləndirdik:***



**Üzeyir Cəfərov,**
hərbi ekspert

## Müsahib

***- 44 günlük savaşdan keçən 3 il ərzində Azərbaycan sərhədlərində və bölgədəki vəziyyəti necə görürsünüz?***

- Qeyri-qanuni erməni silahlı birləşmələri bölgəni tərk ediblər. Azərbaycan dövləti öz əraziləri daxilində lazım olan işləri - infrastrukturun bərpası, hərbi hissələrin yerləşdirilməsi və digər mühüm olan tədbirləri görür. Bu gün Azərbaycan dövləti, xalqı üçün əvvəlki naharatlıq, təhlükə yoxdur. Həmin ərazilərdə həm hərbçilər, həm də mülki əhali öz üzərinə düşəni edir. Bəli, bir çox dövlətlər çalışır ki, Qarabağda, sərhəd rayonlarımızda gərginlik artsın. Azərbaycan bu cür təsirlərə, istəklərə qarşı sakit dayanmır. Lazım olan təkliflərini, şərtlərini verib. İndi daha çox qabardılan ermənilərin ərazilərimizdə yaşaması ilə bağlı hansı qərarın veriləcəyi məlum deyil.

Azərbaycan təklif etmişdi ki, mülki ermənilər qalıb burada yaşaya bilərlər. O da məlumdur ki, ermənilər öz istəkləri ilə ərazilərimiz tərk etdilər. İndi isə görünən odur ki, Rusiya, ABŞ, Fransa kimi böyük dövlətlər çalışır ki, ermənilər yenidən ərazilərimizə qayıtsın. Rusiya sülhməramlılarının ərazilərdən çıxmamasının səbəblərindən biri də odur ki, düşünürlər ki, erməni millətindən olan insanlar yenidən Qarabağa qaytarılacaq. Bununla yanaşı elə bir gərginlik yoxdur, rahat şəkildə bərpa quruculuq işlərimizi görürük. Bərpa prosesində bəzi rayonlarda yeni-yeni silah sursatlar aşkar olunur. Elə bu yaxınlarda Qubadlıda silah-sursat aşkar olunub. Sonuncu 1 günlük antiterror əməliyyatından keçən 3 ay ərzində hələ də bəzi ərazilərdən erməni separatçıların qoyub getdiyi silah sursat yığılır.

Bu yaxınlarda bir məlumat diqqətimi cəlb elədi. Qondarma qurumun sonuncu rəhbəri Şahramanyan Ermənistanda istintaq komissiyasına verdiyi açıqlamada bildirib ki,separatçıların bəzi rəhbərləri hal-hazırda Rusiya sülhməramlılarının yerləşdiyi qərargahda məskunlaşıblar. Separatçıların rəhbərləri o ərazilərdə necə qalır? Əgər doğrudan da silahlı separatçılar sülhməramlıların içərisində ərazilərimizdə qalıbsa, niyə təhvil verilmirlər. Müqaviləyə əsasən guya yanvara qədər sülhməramılar orada nə varsa tam şəkildə Azərbaycana təhvil verib gedəcəklər. Təbii ki, bu məsələ düşündürücüdür.

***- Avropa, Qərbin təzyiq və təhdidlərin olması, Ermənistanın silahlandırılması, gərginlik ocağının saxlanılmasına edilən cəhdlərə istinad edən ekspertlər hətta yeni müharibənin baş verə biləcəyi ehtimalını qeyd edirlər. Müharibə yenidən alovlandırıla bilərmi?***

- Yeni müharibənin olacağını ehtimal etmirəm. Lokal xarakterli təxribatlar törədilə bilər. Ermənistan 44 günlük müharibədən sonra revanşist hazırlıqlara yeni başlayıb. Yəni silah-sursat alır, əsgər və zabitlər hazırlayırlar. Paşinyan bir fransız generalını özünə müşavir götürüb. Bunlar hamısı yaxın illərə hesablanmış addımlardır. Ona görə də hesab edirəm ki, başqa qüvvələr Ermənistanı təhrik, yaxud məcbur eləmədə indiki zamanda müharibə riski yoxdur. Ermənistan indi bu riski gözə almaz. Düzdür, son vaxtlar belə bir ajiotaj yaradılıb ki, Qərb Ermənistanı birbaşa Azərbaycanla toqquşmaya sövq edir. Bununla belə, mən belə bir təhlükəni görmürəm. Birinci ona görə ki, Ermənistanın gücü yoxdur və hələ ordusunu toparlaya bilməyib. Ermənistan Azərbaycana qarşı hər hansı bir zorakılığa əl atacaqsa, yenə də ağır zərbə alacaq.

***- Bakıda Azərbaycan, Gürcüstan, Türkiyə müdafiə nazirlərinin görüşü keçirildi. Bu üçlü hərbi ittifaq bizə nə vəd edir?***

- Bu görüşlər aylaröncə başlamış uğurlu layihədir. Əvvəl Azərbaycan qardaş Türkiyə ilə birlikdə tədbirlər keçirirdi. Sonradan Gürcüstan da Azərbaycanla birlikdə təlimlərə, görüşlərə, müxtəlif tədbirlərə cəlb edildi. Bu görüşlər həm 2023-cü ildə görülən işlərin yekunlarına, həm də gələn il üçün nəzərdə tutulmuş təlimlərə hazırlıqdır. Üç ölkənin müdafiə nazirləri bir araya gəlib bu istiqamətdə sənəd imzaladılar. İndi əlaqədar qurumlar öz işlərini planlaşdırıb hazırlıq işlərinə başlayacaqlar. Əlbəttə ki, bu, çox önəmli bir formatdır. Həm Gürcüstan, eyni zamanda, NATO-nun ikinci aparıcı dövləti olan Türkiyənin təcrübəsinən yararlanırıq. Döyüş qabiliyyətimizi, vərdişlərimizi təkmilləşdiririk, artırırıq. Gürcüstan üçün də bu proses əlavə şans, imkandır. Onlar da bundan ağıllı şəkildə istifadə edirlər. 2025-ci ilə qədər Azərbaycan və Türkiyə müdafiə nazirlərinin intensiv görüşlərinin şahidi olacağıq. Çünki 2025-ci ilə qədər Azərbaycan Ordusu qardaş silahlı qüvvələrin modelinə uyğunlaşdırılacaq. Ona görə də gürcülər də bu prosesdən kənarda qalmaq istəmirlər. Eyni zamanda, əlavə imkanlar əldə edirlər. Onların məqsədləri aydındır.

> “Bu üç ölkə bir yerdədirsə, regionda hər hansı təhlükənin olacağını düşünmürəm

Bu barədə açıq danışmasalar da bu gün bilirik ki, Gürcüstan ordusunun əsas hazırlıq işlərini, modernləşdirilməsini, döyüş hazırlığının artırılmasını qardaş Türkiyə uğurla həyata keçirir. Bu, NATO tərəfindən qardaş Türkiyəyə tapşırılmış bir vəzifədir. Bu üç ölkə bir yerdədirsə, regionda hər hansı təhlükənin olacağını düşünmürəm. Bu üç ölkə gələcəkdə yarana biləcək təhlükələri aradan qaldırmaq imkanı əldə edəcək. Bu ölkələrin orduları birgə təlimlər keçirirlərsə, sabah hər hansı bir antiterror tədbirləri zamanı, hər hansı bir təhlükəni aradan qaldırmaq üçün əlaqəli şəkildə çalışa bilərlər. Bu istiqamətdə də işlər görülür.

***- Ermənistanın silahlandırılması nə dərəcədə realdır və region üçün təhdiddir?***

- Ermənistanın silahlandırılması prosesi bu ölkənin dərhal döyüş hazırlığına malik olması anlamına gəlmir. Bu silahlar təlimlərdə sınaqdan keçirilməlidir. Bunu döyüş meydanında göstərməli, parametrlər müəyyənləşdirilməlidir. Bu, qeyd etdiyim kimi, yaxın 5-10 ilə hesabanmış addımlardır. Ermənistan Fransadan, Yunanıstandan, Hindistandan silahlar alır. Düzdür, işğalçı, revanşist düşüncədə olan bir ölkənin silahlanması region üçün açıq narahatlıq doğura bilər. Onların tez bir zamanda o silahlardan istifadə edə biləcəyini düşünmürəm. Xırda narahatlıqlar yarada bilər, amma aktiv toqquşmalar, ağır silahların istifadəsi qeyri-mümkündür.

***- Ermənistanın KTMT-dən uzaqlaşması bu prosesə nə vəd edir?***

- Ermənistan KTMT-dən uzaqlaşacaq. Ermənistanın KTMT-dən uzaqlaşmaq meyli hələ general Xaçaturovun həmin təşkilatda olduğu dövrdən aydın göründü. Xaçaturov KTMT-dən geri çağırıldı və ona qarşı cinayət işi qaldırıldı. Minskdə keçirilən KTMT sammitində Ermənistanın xarici işlər naziri, müdafiə naziri, Paşinyanın özü belə iştirak etmədi. Ermənistan KTMT-nin bütün tədbirlərini faktiki olaraq boykot edir. Moskva isə utanmadan deyr ki, bu siyasi qərar deyil, texniki məsələdir. Ermənistan KTMT-dən çıxacaq və bu gün digər ölkələrdən aldığı silahlar o anlama gəlir ki, onlar Qərblə daha çox yaxınlaşacaqlar. KTMT adı olub, özü olmayan təşkilatdır. O təşkilatın yegənə cəhdi 2022-ci ilin yanvarında Qazaxıstanda oldu. Ondan başqa fəaliyyəti olmayıb. Ona görə də Ermənistanın, yaxud başqa bir dövlətin o qurumdan çıxmasının hansısa bir nəticələrə gətirib çıxaracağını düşünmürəm. Bu, Rusiya tərəfindən NATO-ya alternativ olaraq düşünülmüş təşkilatdır. NATO-nun bir qanadı da ola bilməz. Orada olan ölkələr də bir neçə ildən sonra başqa yolu seçəcəklər. Mən türk dövlətlərini nəzərdə tuturam. Dünyada baş verən proseslər onu deməyə əsas verir ki, həmin ölkələr də yaxın illərdə həmin təşkilatla yollarını ayıracaqlar.

***- Rusiya sülhməramlılarının sonrakı taleyi necə olacaq?***

- Rusiya sülhməramlıların bölgədə qalması üçün səy göstərir. Son vaxtlar Rusiyanın Azərbaycana loyal münasibəti ondan irəli gəlir ki, sülhməramlıların qalması rəsmi şəkildə tanınsın və müddəti uzadılsın. Hələ Azərbaycan öz sözünü deməyib, amma mən bir Azərbaycan vətəndaşı kimi onların burada qalmasının qəti əleyhinəyəm. Hesab edirəm ki, sülhməramlıların bölgədə qalması bizim üçün əlavə narahatlıq deməkdir. Bu ordu başıpozuq dəstədir, əyyaşlığa, alkoqalizmə meyillidir. Onlar bölgədə qalmaqla bizim insanlarımıza müəyyən problemlər yarada bilərlər. Biz onların Qarabağda olan separatçılara hansı dəstəyi verdiyini yaddan çıxara bilmərik. Ona görə də buradan yola salınmalıdırlar. Prezident Putin, Lavrov, Peskov açıqlamalarında bildiriblər ki, Rusiya sülhməramlılarının fəaliyyətini bundan sonra yalnız Azərbaycanla müzakirə edəcəyik. Başa düşmürəm, əgər erməni silahlıları Qarabağdan çıxıbsa, sülhü bərpa etmişiksə, sizinlə nəyi müzakirə edəcəyik? Görünən odur ki, hansı formada olur-olsun qalmaq istəyirlər. Burada qalmaqla regional baxımdan özləri üçün “Biz sülhməramlıyıq” imicini formalaşdırmaq istəyirlər. Rusiyanın bu gün Ukraynada həyata keçirdiyi işğal siyasətindən sonra onlara qarşı münasibət tamam fərqlidir. Rusiya sülhməramlıları getməlidir. Nə olur-olsun onların getməsini tələb etməliyik. Təəssüflər olsun ki, burada qalmaq üçün kənd təsərrüfatı işi, yol təmiri, elektrik xətlərinin çəkilməsi ilə belə məşğul olmaq istəyirlər. Sülhməramlı nədir, onların fəaliyyət missiyasına uyğun olmayan işlərin görülməsi nədir Düzdür, Azərbaycan üçtərəfli sazişə əsasən sülhməramlıların 2025-ci ilə qədər qalacağını elan edib. Sülhməramlılar da 2025-ci ilə qədər burada qalıb öz dövranını sürmək istəyirlər.

Unutmamalıyıq ki, indiyə qədər sülhməramlılar separatçılara mina, silah-sursat daşıyırdılar. Ermənistandan Qarabağa onminlərlə ermənini ruslar gətirmişdi.

***- ABŞ Azərbaycana hərbi yardımlarını dayandırdı. Bu yardımlar nə qədər bizim üçün önəmli idi və bu yardımlara ehtiyacımız varmı?***

- ABŞ keçmiş SSRİ ölkələrinə hər il müəyyən yardımlar göstərirdi. Həmin sırada Azərbaycan da var idi. Bu, əsasən, Xəzər dənizində Dövlət Sərhəd Xidmətinin mühafizəsinə, o cümlədən qaçaqmalçılığa, qeyri-qanuni silah dövriyyəsinə, narkotiklərdən mübarizəyə, hərbi təhsil sahəsinə şamil edilirdi. Əlbəttə ki, zabitlərimizin, hərbi həkimlərin gedib ABŞ-nin müəyyən kurslarında təcrübə keçməsi, bilgi toplaması yaxşı bir hal idi. İndi ABŞ o yardımları dayandırıb. Burada daha çox siyasi məqamlar var. Məlumdur ki, 907-ci düzəliş 1992-ci ildə qəbul olunmuşdu. Zaman-zaman o düzəlişin fəaliyyəti dayandırılırdı. İndi isə daha sərt qərar verilib. Düşünürəm, bir müddətdən sonra yumşalmalar olacaq.

ABŞ-nin Azərbaycana verdiyi yardımlar daha çox ikitərəfli münasibətlərin, əlaqələrin müsbət yöndə inkişafı baxımından əhəmiyyətli idi. Bu gün cüzi olan yardımlarını dayandırırsa, bu daha çox ABŞ üçün xoş olmayan mənzərə yarada bilər. ABŞ-nin Azərbaycana yardım etmək istəməməsi bizim üçün faciə deyil.

✍ Tahirə Qafarlı

## Müsahib

***Siyasi analitik Tahir Cəfərli ilə hafta.az üçün bu dəfəki söhbətimizdə Milli Ordumuzun Qarabağın dağlıq hissəsində cəmi 23 saatlıq lokal əməliyyatından sonra ermənilərin qısa müddətdə Ermənistana kütləvi köçünün hansı qüvvələr tərəfindən təşkil olunması, Moskvanın həmin guya 100 minlik erməni köçündən İrəvanda Paşinyan hakimiyyətini devirməsinin mümkün mexanizmi, Qarabağ klanının, yəni Ermənistanın eks-prezidentləri R.Köçəryan və S.Sərkisyanın təsiri altında olan qarabağlı erməni mafiyalarının yenidən iqtidara qayıtmaları ehtimalı, Azərbaycanla Ermənistan arasında sülh sazişinin Rusiyanın, yoxsa Qərbin moderatorluğuyla imzalanmasının məqsədəuyğun olması və s. haqda danışdıq.***

# Ermənistanda vətəndaş müharibəsi təhlükəsi realdır



**Tahir Cəfərli,**
siyasi analitik

**- Tahir müəllim, sizcə, ermənilərin qısa müddətdə Azərbaycan ərazisindən kütləvi köçünü kimlərsə təşkil etdi, yoxsa bu, sadəcə kortəbii şəkildə baş vermiş bir proses oldu?**

- Azərbaycan və ya Rusiya Qarabağda etnik təmizləmə aparmayıb. Kənd təsərrüfatında, mədənlərdə, zavod və fabriklərdə işləyən vətəndaşların ölkəni tərk etməsi ilə hər hansı bir ağıllı ölkə razılaşmaz. Bizim ölkə başçısı isə bu məsələdə çox müdrikdir. O istəyirdi ki, ermənilər Qarabağda qalsınlar, yaşayıb işləməyə davam etsinlər, bir şərtlə - Azərbaycan vətəndaşlığını qəbul edib, Konstitusiyamızı, qanunlarımızı tanısınlar. Ona görə də erməniləri Qarabağdan guya azərbaycanlıların, xüsusən də Rusiya sülhməramlı qüvvələrinin qovduğunu düşünmək doğru deyil... Ermənilərin Qarabağdan köçünü yalnız onunla izah etmək olar ki, bunda nə Azərbaycanın, nə də Rusiyanın günahı var. Çünki bu, hər iki dövlətin milli maraqlarına uyğun deyil. Buradan məntiqi sual-nəticə çıxır: bu köç kimin hakimiyyət maraqlarına uyğun idi və ya həmin köçü hansı qüvvə təşkil edib? Təbii ki, ermənilərin Qarabağdan köçməsinin təşkili bu ölkədə hakimiyyəti itirmiş şurtvatsları (Ermənistanda Qarabağda yaşamış ermənilər belə adlanır-S.L.) təmsil edən Ermənistanın keçmiş başçılarının işidir. Onlar siyasi hakimiyyəti öz əllərinə almaqdan ötrü haylara (Ermənistan erməniləri-S.L.) təzyiq etmək və N.Paşinyanı vəzifədən uzaqlaşdırmaq üçün bütün iqtisadi, maliyyə və siyasi rıçaqlara malikdirlər...

Bu mənzərəni təsəvvür edin: gedən şurtvatslar arasında hakimiyyət uğrunda mübarizədə Robert Köçəryanı və Serj Sarkisyanı dəstəkləmək üçün Ermənistana köçmüş 15 mindən çox hərbiləşdirilmiş gənc var. Qarabağdan köç Ermənistanın bu iki keçmiş prezidentinə yenidən hakimiyyətə gəlmək şansı verir. Şurtvatsların Qarabağdan köçündən sonra Ermənistanda haylarla şurtvatslar arasında qüvvələr nisbəti nəinki bərabərləşib, hətta İrəvanda indi haylardan daha çox şurtvatslar üstünlük təşkil edir. Buna Qarabağ ordusunda yaxşı təlim keçmiş qeyd etdiyimiz 15 min gənci də əlavə edin ki, onlar da lazımi anda Paşinyan və onun haylarına qarşı üsyan edəcəklər. Beləliklə, Ermənistan tezliklə vətəndaş müharibəsi ilə üzləşəcək. Onda Rusiya Ermənistanla Rusiya arasında bağlanmış Hərbi Müqaviləni əsas götürəcək və bu, vətəndaş müharibəsinə son qoyacaq...

> “Ermənistanla sülh sazişi imzalanana qədər sülhməramlıların orada qalması indiki dövrdə Azərbaycanın marağındadır

Azərbaycanın keçmiş vətəndaşları Ermənistanda yenidən hakimiyyəti ələ keçirəcək və bu ölkəni ayı ilə müqayisə edilən Rusiyanın ayıq nəzarəti altında idarə edəcəklər. Ayının isə belə vərdişləri var. O, ovunu öldürür, ancaq onu dərhal yemir, qoxumasını gözləyir. Digər heyvanlar iylənmiş ətə yaxın getmirlər. Müqayisənin mahiyyəti ondan ibarətdir ki, Qərb ölkələri qoxumuş ətə yaxın getməyəcəklər...

***- Deyirsiz ki, Qarabağdan ermənilərin son kütləvi köçündə Rusiyanın, “sülhməramlı”ların heç bir təsiri olmayıb, bunu keçmiş Ermənistan prezidentlərinin mafiyası, yəni Qarabağ klanı təşkil edib. Bəs həmin terrorçu eks-prezidentlər, yəni Köçəryan, Sərkisyan və s. elə sovet dövründən bəri “KQB”-nin, “FSB”-nin agentləri kimi Moskvanın, Rusiyanın adamları deyillərmi?***

- Qarabağdan şurtvatsların köçürülməsində Rusiya sülhməramlılarının heç bir rolu olmayıb. Hər şeydən əvvəl onu qeyd etməliyik ki, bu, Rusiyanın geosiyasi marağında deyil. 44 günlük müharibəni dayandıran Rusiyanın məqsədi, əksinə, oradakı erməniləri qorumaq idi. Odur ki, sülhməramlıları Qarabağa yeritmişdilər... Şurtvatsların 19 sentyabrdan sonra Qarabağı tərk etmələri ilk növbədə elə Rusiya üçün gözlənilməz oldu. Yəni Rusiyanın Qarabağla bağlı bütün planlarına son qoydu. Rusiya sülhməramlıları bu saat heç kimi qorumur. Odur ki, Azərbaycan Prezidentinin bir tələbi ilə oradan çıxarıla bilər.

Ancaq hələlik onların Qarabağda qalması Azərbaycanı ABŞ və Fransa təcavüzündən qoruyur. Bundan əlavə, Rusiya qüvvələrinin çıxarılması Qarabağda yerləşdirilmiş Türkiyənin hərbi nəzarətçilərinin də çıxarılmasına səbəb ola bilər. Çoxları indiyə qədər anlamır ki, Türkiyə hərbiçilərinin Qarabağda olması istər Rusiya, istərsə NATO-nun Qarabağa girməsinin qarşısını alır... Bir sözlə, hesab edirəm ki, Ermənistanla ülh sazişi imzalanana qədər sülhməramlıların orada qalması indiki dövrdə Azərbaycanın marağındadır...

200 il ərzində Azərbaycana qarşı Rusiyanın etdikləri əsasında bizdə mənfi stereotiplər yarandığından bu günə qədər ölkəmizdə çoxları bu ölkəyə qarşıdır. Ona görə Qarabağda baş verən hadisələrin birbaşa Rusiya ilə əlaqəli olduğunu anlamaq istəmirlər. 44 günlük müharibədə Rusiyanın kənarda qalması, elə Kremlin erməniləri satqınlığına görə onları yerində oturtmaq üçün ən düzgün addımı idi. Heç bir təzyiq olmadan şurtvastların Ermənistana köç etmələrinin bir siyasi davamı var: şurtvastlar Nikol Paşinyana qarşı inqilab edə bilərlər. Əlbəttə ki, bu, Rusiyanın xeyrinədir. Bununla belə, birbaşa Kremlin oyunu olmadığı da göz qabağındadır... O ki, qaldı Köçəryanın, yaxud Sərkisyanın yenidən hakimiyyətə gətiriləcəyinə bu, qeyri-mümkündür. Çünki ilk növbədə bunların hər ikisinin ikibaşlı agentlər olduğu üzə çıxıb. Köçəryan da, Sərkisyan da həm Rusiya, həm də Qərbə işləyiblər. Bunların satqınlığına görə də Rusiya erməniləri cəzalandırır. Bununla belə, şurtvatslar yenə də Rusiyaya işləyirlər. Moskva onların arasındakı fəal fiqurlardan birinə stavka edə bilər. Bu, “arsax” deyilən qondarma dövlətin sonuncu “prezidenti” də ola bilər...

***- Qarabağdan getmiş 15 mindən çox hərbiləşdirilmiş erməni gəncinin Paşinyana qarşı üsyan qaldıracağını deyirsiz. Yəni bu halda Rusiya Ermənistanla Hərbi Müqavilədən istifadə edib bu ölkəyə əlavə qoşun yeridərək “sabitlik” yaratmaq adıyla yenidən Qarabağ klanını hakimiyyətə gətirəcək?***

- Bu, həqiqətən, belə qurtaracaq. Şurtvastların hərbi dəstələrinin Ermənistana keçməsi Paşinyan üçün böyük təhlükədir və Qarabağ ermənilərinin itirdiyi hakimiyyəti geri qaytarmaq üçün yeganə vasitədir. Nəzərə alsaq ki, haylar şurtvatsların bir nömrəli düşmənləridir, belə nəticə çıxartmağa daha çox əsas əldə etmiş oluruq...

⏩ Səh. 5

# Xankəndidə Qarabağ Universiteti

## Layiha

***Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması barədə sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılır.***



Nazirlər Kabinetinə iki ay müddətində universitetin nizamnaməsini təsdiq edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək, universitetin fəaliyyətinin maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görmək, universitetin Xankəndi şəhərində torpaq sahəsi, tədris və yataqxana binaları, idman meydançası və digər infrastruktur obyektləri ilə təminatı məsələlərini həll etmək, Sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Qeyd edək ki, SSRİ dövründə Qarabağda yeganə ali təhsil ocağı Xankəndi Pedaqoji İnstitutu olub və bu təhsil müəssisəsi 1969-cu ildə fəaliyyətə başlayıb. Bu təhsil ocağı Azərbaycanın təhsil müəssisələri arasında özünəməxsus yer tutub. İnstitutun Yuxarı Qarabağın və ərazi cəhətdən ona bitişik olan digər rayonların gənclərinin ali təhsilə yiyələnməsində xüsusi rolu olub.

Xankəndi Pedaqoji İnstitutu 1969-cu ildə indiki N.Tusi adına Pedaqoji Universitetin (keçmiş Lenin adına APİ) filialı kimi fəaliyyətə başlayıb. Bir neçə ildən sonra - Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkilinin 50 illik yubileyi günündə Xankəndi filialının maddi-texniki bazası əsasında, Azərbaycan Nazirlər Sovetinin 28 noyabr 1973-cü il qərarı ilə müstəqil ali məktəb kimi fəaliyyətini davam etdirib. İnstitut təşkil edilərkən burada üç dildə - Azərbaycan, rus və erməni dillərində ali pedaqoji təhsilli kadr hazırlığına başlanıb. Fəaliyyətə başlamasından 19 il keçdikdən sonra Xankəndi şəhərində başlanan məlum hadisələrin ilk zərbələrindən biri bu ali təhsil ocağının kollektivinə dəyib. 1988-ci il mayın 16-da institutun Azərbaycan bölməsinin müəllim və tələbələri fiziki və mənəvi təzyiqlər altında Xankəndi şəhərini tərk etmək məcburiyyətində qalıblar. Bununla da Xankəndi Pedaqoji İnstitutunun taleyinə köçkünlük həyatı yazılıb.

■ **Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov bizimlə söhbətində bildirib ki, ölkə Prezidentinin sərəncamı ilə Qarabağda ayrıca bir dövlət universitetinin yaradılması və onun Qarabağ Universiteti adlandırılması çox böyük hadisədir:**



"Məlum məsələdir ki, təhsil dövlətçilik siyasətinin əsas vuran qolu, təməl nöqtələrindən biridir. Ona görə də bu universitetin yaradılmasının bir neçə rakursdan faydaları var. Birincisi, dövlətçiliyə dəstək, ikincisi, azad olunmuş Qarabağ adının təhsil seqmentində də var olduğunu göstərmək, üçüncüsü isə tədrisin keyfiyyəti ilə bağlı məsələlərdir".

Onun sözlərinə görə, Qarabağ Universiteti Azərbaycanın xüsusi təhsil göstəricilərinə malik olan ən böyük ali təhsil müəssisəsi olacaq: "Xankəndidə fəaliyyətə başlayacaq universitet təhsilin brendi olacaq. Təbii ki, işğaldan azad edilmiş ərazilərin quruculuğunda təhsil müəssisələrinin tikintisi, bərpası və tədrisin təşkili vacib amildir. Çünki təhsil insanların işğaldan azad edilmiş ərazilərdə sürətlə məskunlaşmasına, eyni zamanda həmin ərazilərdə xidməti vəzifələrini yerinə yetirən əməkdaşların övladlarını təhsil almaq şəraitinin yaxşılaşdırılması üçün bu, vacib amildir. Dövlət başçısı İlham Əliyevin hazırda qarşıya qoyduğu ən mühüm vəzifələrdən biri işğaldan azad olunmuş ərazilərin bərpasıdır. Hesab edirəm ki, bu prosesdə Azərbaycan təhsili də fəal iştirak etməlidir. İşğaldan azad edilmiş ərazilərdə xidmət keçən şəxslərin məktəbyaşlı övladlarının təhsil hüququnun təmin edilməsi, onlar üçün təhsilin əlçatanlığının təmin edilməsi zəruridir. Buna görə işğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir".

Onun fikrincə, indiki halda işğaldan azad olunmuş ərazilərdə məskunlaşacaq əhaliyə təhsil xidmətlərinin göstərilməsi üzrə mütəxəssislərin fəaliyyətləri stimullaşdırılmalıdır. Çünki ora gedəcək müəllimlər ilkin olaraq sözügedən ərazilərdə yaşamaq üçün təlimlərə cəlb olunmalı, onların əməkhaqlarına xüsusi əlavələr edilməlidir. İşğaldan azad olunmuş ərazilərdə məşğulluğun aradan qaldırılması baxımından, eyni zamanda prioritet mövcud təhsil müəssisələrində mütəxəssislərin hazırlanması üçün Təhsil Nazirliyi müəllimlərin işə qəbulu imtahanında iştirak edib, müvafiq balı toplayan, amma vakansiya yoxluğu səbəbindən işə qəbul olunmayan müəllimləri prosesə cəlb edə bilər".

*"Qarabağ Universiteti Azərbaycanın xüsusi təhsil göstəricilərinə malik olan ən böyük ali təhsil müəssisəsi olacaq*

*Gənclər Qarabağ Universitetində təhsil almaq istəyəcəklər, çünki hər birimizin istəyi Qarabağın azad edilməsi idi*

K.Əsədov xatırladıb ki, azad edilmiş ərazilərdə işğaldan əvvəl ümumilikdə 259 məktəbəqədər təhsil, 673 ümumi təhsil, 40 məktəbdənkənar, 14 peşə təhsili, 7 orta ixtisas təhsili olmaqla 993 təhsil müəssisəsi fəaliyyət göstərib: "Birdən-birə bu infrastrukturun bərpası mümkün deyil. Bunun üçün azı 3-5 il vaxt lazımdır. Lakin ilkin mərhələdə məskunlaşmanın həyata keçirilidiyi və xidmətli şəxslərin olduğu ərazilərdə təhsil xidmətlərinin göstərilməsi təmin edilməlidir".

O həmçinin bildirib ki, işğaldan azad edilmiş ərazilərdə təhsilin təşkilinin 3 mərhələdə keçirilməsini təklif ediblər: "Birinci mərhələdə ora köçürüləcək, dədə-baba yurdlarına qayıdacaq şagirdlərin sayına uyğun olaraq modul tipli orta ümumi təhsil məktəblərinin tikilməsi lazımdır. Çünki birdən-birə böyük orta təhsil müəssisələrinin tikilməsi uzun vaxt aparacaq. İkincisi, biz Qarabağın inzibati ərazisində və işğaldan azad edilmiş ərazilərimizdə bir neçə ali təhsil müəssisəsini mütləq şəkildə açmalıyıq. Nəzərə almaq lazımdır ki, işğaldan azad edilmiş ərazilərdə məzunlar olacaq, yəni 10-11-ci siniflərdə təhsil alan abituriyentlər olacaq ki, ali təhsil müəssisələrinə daxil olmaq istəyəcəklər. Onlar paytaxt Bakıya və digər şəhərlərə getmək əvəzinə Qarabağda təşkil olunacaq universitetlərə daxil olsunlar. Məsələn, Şuşa Dövlət Universiteti yaradılmalı, Laçında, Qubadlıda Müəllimlər İnstitutunun, İqtisad Universitetinin filiallarını açmalıyıq".

K.Əsədov vurğulayıb ki, bu universitetdə, ilk növbədə, Qarabağ regionunun inkişafı üçün kadr potensialı yetişdirilməli, ixtisaslar bölgənin spesifikasına uyğun formada müəyyənləşməlidir: "Eyni zamanda, universitetdə Qarabağın tarixinin tədris olunmasına xüsusi diqqət yetirilməlidir. Həmçinin, düşünürəm ki, universitetə xarici ölkələrdən də təhsil almaq üçün tələbələr cəlb olunmalıdır. Üçüncüsü isə buradakı universitetlərdə hüquq fakültələri açılmalıdır. Çünki şahidi olduq ki, Dağlıq Qarabağ münaqişəsi zamanı ən böyük problemlərimizdən biri həmin ərazilərdə hüquq-mühafizə orqanlarında azərbaycanlı kadrların azlıq təşkil etməsi idi. Hətta orada Polis Akademiyası da açmaq olar. Qarabağda təkcə ali təhsili deyil, həm də peşə təhsilini inkişaf etdirmək vacibdir. Qarabağda şəhərcikləri olan universitetlər tikmək lazımdır ki, tələbələr orada həm oxusunlar, həm də yola vaxt itirmədən yaşasınlar".

■ **Mövzu ilə bağlı Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov da xatırladıb ki, Qarabağ regionunda ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub:** "Təəssüf ki, ali təhsil müəssisəsi 1988-ci ilədək fəaliyyət göstərib. Artıq Qarabağ azaddır. Bu gün qarşımıza mühüm hədəf və məqsədlər qoymuşuq. Hesab edirəm ki, bölgələrdə yeni universitetlərin yaradılması Bakıda sıxlığın qarşısını nisbətən almağa köməklik edə biləcək. Qarabağ Universitetində bütün sahələr üzrə mütəxəssislərin yetişdirilməsinə önəm verməliyik. Geniş kampuslu müasir təhsil müəssisəsinin yaradılmasına ehtiyac var. Beynəlxalq universitetin yaradılması yaxşı olardı. Bir neçə dildə universtitetin yaradılması, xarici ölkələrdən tələbələrin cəlb edilməsi üçün addımlar atılmalıdır".

Millət vəkilinin sözlərinə görə, Azərbaycan gəncləri Qarabağ Universitetinə maraq göstərəcəklər: "Bu gün hər bir azərbaycalının ürəyi Qarabağla döyünür. Əminəm ki, gənclər Qarabağ Universitetində təhsil almaq istəyəcəklər, çünki hər birimizin istəyi Qarabağın azad edilməsi idi. Arzumuza çatmışıq və çox önəmli mərhələyə daxil olmuşuq. Bu, yeni imkanlar və fürsətlər yaradacaq. Müasir təhsil müəssisəsi yaradacağımıza inanıram". "İllərdir zəhərlənmiş, gözdən salınmış Qarabağ torpaqlarında yeni yaradılan nə varsa, hamısı gözəldir, xeyirlidir, xalqımızın gələcəyidir. Bu baxımdan, Xankəndidə Qarabağ Universitetinin yaradılması ilə bağlı sərəncam vaxtında, yerində verilmiş tarixi qərardır".

■ **Bunu isə, tarixçi alim Qasım Hacıyev bildirib. Tarixçi alim hesab edir ki, Qarabağın mərkəzi şəhəri olan Xankəndidə belə bir Universitetin yaradılması Azərbaycanın, azərbaycanlıların tarixinə, xalqın mədəniyyətinə hörmət, ehtiramdır:**

"Ali təhsil almaq istəyən hər bir gənc Xankəndinin Qarabağ Universitetində təhsil ala bilər. İndiyədək fiziki olaraq torpaq və insanlarımızın yaşadığı ağrı-acılar unudular, elm və təhsilimiz sayəsində tarixin yaddaşında möhkəmlənər. Çox sevinirəm. Xankəndi elə bir şəhərdir ki, bu torpağın Qarabağ xanının olması, Azərbaycan torpaqları olması barədə dil-dodağımız yana-yana danışırdıq, amma indi alnımız açıq, üzümüz ağdır. Başda İlham Əliyev olmaqla, bütün Azərbaycan xalqı bu ərazilərin işğaldan azad edilməsi üçün can qoydu, şəhidlər verdi və nəhayət, onun azadlığına nail oldu. Qarabağ Universitetində təhsil almaq istəyən hər bir gəncimizə uğurlar arzulayıram".

"Qarabağ Xankəndi, Şuşa mədəniyyətimizin, elm və təhsilin mərkəzlərindən olub. Qarabağ Universitetinin öz əzəli kökləri üzərində yenidən bərpa edilməsi vacibdir, mənəvi dəyərlərin, ruhumuzun dirçəlməsi baxımından əlamətdar hadisədir".

■ **Bunu isə hafta.az-a ilahiyyatçı Tural İrfan Xankəndidə Qarabağ Universitetinin mənəvi əhəmiyyəti ilə bağlı açıqlamasında bildirib. T.İrfan qeyd edib ki, Qarabağ Universiteti gələcəkdə xarici ölkələrdən gəlib burada təhsil almaq istəyən gənclərin də təhsil ocağına çevrilməli, Azərbaycan-Qarabağ həqiqətlərinin dünyaya düzgün çatdırılması baxımından əsas tribuna kimi istifadə olunmalıdır:**

"Torpaqlar işğaldan azad edildikdən sonra, Azərbaycanın erməni xalqına qarşı aqressiya göstərib, erməni sakinlərini oradan didərgin salması ilə bağlı iftiralar səslənirdi. Universitetin açılması onu sübut etdi ki, Azərbaycan dünən olduğu kimi, bu gün də humanist ideyalarını davam etdirir. Vaxtilə Xankəndidə fəaliyyət göstərən Pedaqoji İnstitutda Azərbaycan dilindən başqa, rus, erməni bölmələri də olub. Bu, Azərbaycanda azərbaycanlıların başqa xalqlara tolerant yanaşmasının, humanistliyinin nümunəsi kimi qəbul olunsa da, ermənilər və onların havadarları öz revanşist siyasətlərini həyata keçirərək planlar qurur, 1988-ci ildə qiyam qaldıraraq, azərbaycanlıların öz yurdlarından qovulmasına nail oldular. Ermənilər 31 il həmin əraziləri işğalda saxlayaraq talayıb-dağıtmışdılar. Ermənilər orada diqqətçəkən təhsil, mədəniyyət ocaqları yaratmamışdılar. Xankəndidə yaradılan Qarabağ Universiteti tarixi dərindən araşdırıb, özünün tolerant, humanist ideyalarına söykənərək, öz haqqını qorumaqla fəaliyyətini quracaq".

*"Xankəndidə belə bir Universitetin yaradılması Azərbaycan tarixinə, xalqın mədəniyyətinə hörmət, ehtiramdır*

*Qarabağ Universiteti Şərq, müsəlman aləminin ən aparıcı, parlaq universitetlərindən olacaq*

T.İrfan eyni zamanda qeyd edib ki, Xankəndinin azad edilməsindən sonra belə bir təhsil ocağının yenidən təsis edilməsi sübut edir ki, öz torpaqlarımızın əzəli sahibləri, varisləri olacağıq:

"Cənab Prezidentin bu sərəncamını siyasi, mədəni, himanist addım kimi yüksək dəyərləndirirəm. Xankəndidə hər hansı məscidin, başqa bir müəssisənin açılışından əvvəl ilk olaraq təhsil ocağının təsis edilməsi dərin düşünülmüş, müdrik addımdır. Universitetdə yüksəkixtisaslı kadrlar yetişməlidir. Bu, Qarabağın inkişafının zərurəti, dərin özülü, köküdür. Azərbaycanın gələcəyi üçün beynəlxalq nankor qüvvələrin hücumları qarşısında universitet qalxan olacaq. Azərbaycan gəncləri Qarabağ Universitetində təhsil alaraq ölkəmizə, dünyaya böyük töhfələr verəcəkər". İlahiyyatçı hesab edir ki, Xankəndi şəhərində təməli qoyulan Qarabağ Universiteti Şərq, müsəlman aləminin ən aparıcı, parlaq universitetlərindən olacaq:

"Ola bilsin ki, Xankəndidə də yenə azərbaycanlılarla bərabər, ermənilər və digər millətlərdən olan xalqlar da yaşadılar. Lakin, Xankəndi Azərbaycan xalqının uzun müddət həsrətini çəkdiyi, mədəniyyət, elm ocağı kimi hər zaman diqqət mərkəzində olacaq".

***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

## XƏBƏRİNİZ OLSUN...



■ Dövlət Sərhəd Xidmətinin Mətbuat xidməti mərkəzinin rəisi Aftandil Abbasovun rütbəsi artırılıb. Bu barədə Xidmət rəisi, general-polkovnik Elçin Quliyev əmr imzalayıb. Əmrə əsasən A.Abbasova polkovnik hərbi rütbəsi verilib.

---

■ Metronun "Nərimanov" stansiyasında qatardan düşüb stansiyanı tərk edən ahıl yaşlarında kişi sərnişin stansiya vestibülündə özünü pis hiss edib və dünyasını dəyişib. Bu barədə "Bakı Metrooliteni" QSC-dən məlumat verilib. Bildirilib ki, çağırılmış təcili tibbi yardım xidməti ölüm faktını təsdiq edib.

---

■ Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar Türkiyədə Ermənistanla Azərbaycan arasında sülh prosesini müzakirə edib. Bu barədə məlumatı Klaar X sosial şəbəkəsindəki hesabında açıqlayıb. Onun sözlərinə görə, noyabrın 28-i Ankarada səfərdə olub: "Aİ və Türkiyə arasında Cənubi Qafqazla bağlı ortaq maraq doğuran məsələlər, xüsusilə də Ermənistanla Azərbaycan arasında sülh prosesi müzakirə edilib".

---



■ "Azərsu"dan mənə bildirildi ki, AMEA-nın tabeliyindən çıxan Mərkəzi Nəbatat Bağının 70 min manat su borcu var". Bunu AMEA-nın prezidenti İsa Həbibbəyli deyib. Akademik onların tabeliyindən çıxan qurumların borcu üçün AMEA-ya məlumat verilməməsini istəyib.

---

■ Xəzəri qidalandıran Volqada su ehtiyatı azalıb. Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimov deyib. O bildirib ki, son on ildə Xəzərin suyunda 114 sm azalma olub: "Mövcud vəziyyət təkcə Xəzərin ekosisteminə deyil, eyni zamanda da limanların fəlaiyyətinə mənfi təsir edir. Bu problemlə mübarizə aparmaq üçün Xəzərin səviyyəsinin azalması problemi ilə bağlı işçi qrupunun yaradılması prosesinə başlanılıb".

---

■ AMEA-nın 7 müəssisəsi bağlanıb. AMEA-nın Ümumi yığıncağında 7 müəssisəsinin bağlanılması barədə səsvermə keçirilib. AMEA-nın Elm Tarixi İnstitutunun, AMEA-nın nəzdində "Elm və Texnologiya Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin, AMEA-nın Mərkəzi Nəbatat Bağının, AMEA-nın Təmir-tikinti və quraşdırma idarəsinin, AMEA-nın təsərrüfat hesablı Avtobazasının, AMEA-nın Mineral Xammalın Kompleks Emalı üzrə Təcrübə İstehsalatlı Xüsusi Konstruktor Texnoloji Bürosunun və AMEA-nın "Selen" Elmi İstehsalat Birliyinin ləğv edilməsinin rəsmiləşdirilməsinin başa çatdırılması haqqında qərarlar qəbul olunub.

---



■ Amerikalı biznesmen İlon Mask HƏMAS qruplaşmasının Qəzzaya səfər etməklə bağlı dəvətini qəbul etməyib. Bu barədə məlumatı biznesmen öz "X" hesabında paylaşıb. O, hazırda belə bir səfəri təhlükəli adlandırıb: "Bu hazırda bir qədər təhlükəli görünür. Lakin düşünürəm ki, Qəzzanın uzunmüddətli çiçəklənməsi bütün tərəflərin xeyrinə olacaq".

---

■ Rusiya Moldova hakimiyyətinin Moskva ilə Kişinyov arasında münasibətləri pozmağa yönəlmiş anti-Rusiya sanksiyalarına qoşulmaq qərarını cavabsız qoymayacaq. Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib. "Biz bunu Rusiya-Moldova münasibətlərini pozmağa yönəlmiş növbəti düşmən addımı kimi qiymətləndiririk. Şübhə yoxdur ki, bu, bizim tərəfimizdən cavabsız qalmayacaq", - deyə Zaxarova vurğulayıb.

# Ağdərə rayonunun ləğvi səhv qərar idi



**Aqil Məmmədov,**
Milli Məclisin deputatı

***İşğaldan azad olunan ərazilərin inzibati xəritəsi yenilənir. Şəhər və kəndlərin yenidən qurulması ilə yanaşı, ərazi bölgüsü məsələləri araşdırılır, işğaldan azad olunan bölgələrimiz artıq yüklərdən də azad edilir, bərpa olunur. Belə rayonlardan biri Ağdərədir. Ağdərə işğaldan sonra necə yenilənəcək? "Həftə içi"nə müsahibə verən Milli Məclisin deputatı Aqil Məmmədov maraqlı faktara toxunub.***

## Müsahib

***- Aqil müəllim, bu gün Ağdərə rayonunun yaradılması, Kəlbəcər və Tərtərin bəzi ərazilərinin Ağdərəyə verilməsi müzakirə edilir. Bu hansı zərurətdən yarandı?***

-1992-ci ildə Ağdərə rayonunun ləğv olunması ilə əlaqədar qərar verilmişdi. O vaxt ölkədə gərgin ictimai-siyasi vəziyyət hökm sürürdü. 1988-ci ildən cərəyan edən hadisələr zamanı ermənilər "Dağlıq Qarabağ"ın Ermənistana birləşdirilməsini, eləcə də qondarma respublikanın yaradılması tələbini qoymuşdular. Belə bir şəraitdə çıxış yolunu ən böyük əraziyə malik Ağdərə rayonunun ləğv edilməsində görüblər. Əlbəttə ki, bu düzgün addım deyildi. 1600 kvadrat kilometrdən artıq ərazisi olan bir rayonu ləğv etmək qəbuledilməz idi.

Bu gün II Qarabağ müharibəsindən sonra Azərbaycanda yaranan reallıqlar, Azərbaycan ordusunun Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etməsi, eyni zamanda, 2023-cü ildə keçirilən 23 saatlıq antiterror təbirləri nəticəsində suverenliyini tam bərpa etməsi yeni vəziyyət yaradıb. Ali Baş Komandan Xankəndi şəhərində Azərbaycan bayarağını ucaltdı. Bu səbəbdən vəziyyətə yenidən baxamaq lazım idi.

Misal çəkə bilərəm: Kəlbəcər rayonu ərazi baxımından respublikanın ən böyük rayonlarından biridir. 1936 kvadrat kilometr ərazisi var idi. Ağdərə bölünən ərəfədə 1000 kvadrat kilometrdən artıq ərazi Kəlbəcər rayonuna birləşdirildi. Nəticədə 12 nümayəndəlik, 20-dən artıq kənd Kəlbəcər rayonunun ərazisinə verildi.

Məsələn, İmarət Qərvənd Ağdərə rayonunun kəndlərindən biridir. Bir neçə kəndlərini Kəlbəcər şəhər mərkəzi ilə 70 kilometrdən artıq yol birləşdirir. Ağdam, Tərtər rayonlarına verilən ərazilər də həmçinin Yəni məsafə, ərazi, kəndlərimizin dağınıq şəkildə müxtəlif ərazilərdə yerləşməsi baxımından idarəetmə sistemini təkmilləşdirməyə ehtiyac vardı. Bu, eyni zamanda işğaldan azad olunmuş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyasını təmin etmək, funksionallaşdırmaq, dövlət, hakimiyyət orqanlarının vətəndaşlarla təmasını asanlaşdırmaq baxımından da əlverişlidir. Burada Ağdərə rayonunun yenidən bərpası ilə əlaqədar heç bir rayonun ərazisi birləşdirilmir.

1992-ci ildə Kəlbəcər rayonuna verilmiş ərazi, yəni 735,184 kvadrat kilometr, Tərtər rayonuna verilmiş 851,25 kvadrat kilometr, Ağdam rayonuna verilmiş 73,74 kvadrat kilometr qaytarılır. Bu ərazilərdə mövcud olan icra nümayəndəliklərinin və bura daxil olan kəndlərin hesabına yenidən Ağdərə rayonunun bərpası istiqamətində məsələlərə baxılır. Düşünürəm ki, bu mühüm addımdır. Ağdərə böyük, yeraltı, yerüstü sərvətləri ilə zəngin olan, böyük meşə örtüyünə malik olan bir rayondur. İnanıram ki, Ağdərədə vahid mərkəzdən idarəetmə sistemi normal qurulduqdan sonra orada vətəndaşlarımızın işlə əlaqədar problemləri də öz həllini tapacaq. Ağdərə kənd təsərrüfatı üçün yararlı olan böyük əraziyə malikdir. Bütün bu məsələlər komitə iclasında müzakirə olunub və dəstəklənərək Milli Məclisin plenar iclasında müzakirəyə təqdim olunub.

***- Bu ərazilərdə kəndlilərə pay torpaqlarının verilməsi nəzərdə tutulur. Amma kəndlər birləşdirilir. Bu nə dərəcədə effektlidir və kəndlərin birləşdirilməsi bizə nə verəcək?***

- Bəzi kəndlərin birləşdirilməsi ilə bağlı məsələ var. Düşünürük ki, bu, daha səmərəli və keyfiyyətli olacaq. Çünki elə kəndlərimiz var ki, 25-50 təsərrüfatdan ibarətdir və rayon mərkəzlərindən çox uzaqdadır. Bu cür bir neçə xırda kəndin birləşdirilməsi sərfəlidir. Çünki infrastrukturun bərpası istiqamətində görülən işlərdə müəyyən xərclərdən azad olunur, kəndlər rayon mərkəzinə yaxınlaşdırılır.

Pay torpaqlarına gəlincə, kəndlərin yerləşdiyi ərazilər olduğu kimi qalır. Ərazilərin bərpası və məskunlaşma prosesi tam başa çatdıqdan sonra torpaq islahatları aparılacaq və bu proqramda pay torpaqlarının verilməsi də öz əksini tapacaq. Bilirsiz ki, Azərbaycan artıq pay torpaqlarının verilməsi təcrübəsini keçib. Məlumdur ki, digər bölgələrimizdə islahatlar aparılıb-vətəndaşlara pay torpaqları verilib. Pay torpaqları özü də kateqoriyalara bölünür: yararlı, qismən yararsız əkin sahələri, böyük otlaq, biçənək sahələri var. Kənd Təsərrüfatı rayonlarında bu təsnifatın aparılması üstünlük təşkil edir və bölgə ərazisində torpaqların kateqoriyası nəzərə alınaraq düzgün, ədalətli bölgü aparılmalıdır ki, vətəndaşlarımız o torpaqdan səmərəli istifadə etsinlər. Yararlı pay torpaqlarının verilməsi, bir növ iş yerinin açılması kimi qəbul olunsa daha gözəl olar. Çünki insanlar o torpaqarda əkib-becərməli, mənfəət götürməlidirlər. Kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün orada lazımı şərait yaradılmalıdır. Eyni zamanda, dövlət tərəfindən əkin-biçin üçün lazımi subsidiyalar da verilir. Bu da vətəndaşlarda maraq yaratmaq üçün dövlətin verdiyi dəstəkdir.

***- Qarabağ ermənilərinin Azərbaycana qayıtması prosesi sizcə hansı qaydada və hansı müddətə olmalıdır?***

- Sonuncu antiterror tədbirləri nəticəsində Azərbaycan tərəfi ermənilərə şifahi və yazılı şəkildə bildirmişdi ki, Azərbaycan vətəndaşlığını qəbul edib, Azərbaycanın şəxsiyyət vəsiqəsini daşıyan ermənilərə ərazilərimizdə yaşamaları üçün heç bir problem olmayacaq. Və digər vətəndaşlarımız kimi öz hüquqlarından lazımı səviyyədə istifadə edə biləcəklər. Amma hər kəs gördü ki, ermənilər yaşadıqları əraziləri könüllü şəkildə tərk etdilər, hətta müəyyən qurumların sorğu-sualları zamanı cavablarından belə göründü ki, burdan çıxıb getmələri üçün onlara heç bir təsir göstərilməyib. Sadəcə olaraq çıxıb gedən mülki ermənilər ümumi vəziyyəti nəzərə alıb ərazilərimizi tərk etdilər.

> “
>
> *Ağdərə rayonunun yenidən bərpası ilə əlaqədar heç bir rayonun ərazisi birləşdirilmir*
>
> *Xankəndinin azərbaycanlılarla məskunlaşdırılmasında heç bir problem görmürəm*
>
> *Azərbaycan həmişə qonşuluq siyasətini yüksək səviyyədə qurmağa çalışan tərəfdir*

Gəlin mövcud mənzərəyə müqayisəli yanaşaq. Hələ 1988-89-cu ildə azərbaycanlıların yaşadıqları ərazilərdən hansı vəhşiliklərə məruz qoyularaq çıxarıldıqları bəllidir. Görünür, gedən erməniləri bu faktlar narahat edir, yəqin ki, vicdan əzabı çəkərək getmək qərarı veriblər. Lakin Ermənistan siyasi rəhbərliyi məsələni olduğu kimi işıqlandırmır, bunu onların məcburən öz yaşadıqları ərazini tərk etməsi kimi göstərirlər. Bu da yalandır. O ki qaldı bundan sonra proseslərin necə inkişaf edəcəyinə, bilirsiz ki, Qərbi Azərbaycan icması tərəfindən 1988-ci ildə 250 mindən artıq soydaşımızın məcburən öz ata-baba yurdundan deportasiya olunması və onların Qərbi Azərbaycana qayıtması istiqamətində məsələlər artıq qaldırılıb.

Gedən ermənilərin geri qayıtması ilə bağlı konkret vaxtın, müddətin verilməsinə, hesab edirəm ki, nə oyunları olursa olsun, onlara vaxt verilməli deyil. Bu gün Azərbaycan humanist siyasət yürüdür, beynəlxalq hüquq normaları çərçivəsində özünün addımlarını atır. Yəqin ki, azərbaycanlıların öz yurduna qaytarılması şərti qarşılıqlı anlaşma şəraitində, hüquqi müstəvidə özünün həllini taparsa, regionda birgə yaşayışa nail olmaq olar.

Azərbaycanın 250 min soydaşının öz ata-baba yurduna geri qaytarılması ilə bağlı tələbi haqlıdır və bu, ermənilərin də geri qayıtmasına əngəl yaratmır. Amma qarşı tərəfin niyyəti bəlli deyil. Qərbi azərbaycanlılar isə təhlükəsizlik tədbirləri təmin olunmaqla öz ata-baba yurdlarına qayıtmalarını səbirsizliklə gözləyirlər.

***- Xankəndinin tam olaraq azərbaycanlılarla məskunlaşdırılması realdırmı?***

- Artıq Xankəndidə Qarabağ Universitetinin yaradılması hər kəsi sevindirir. Xankəndi Azərbaycanın qədim diyarlarından biridir. Vaxtilə ermənilər də azərbaycanlılarla birlikdə o ərazilərdə yaşayıblar. Amma bu gün vəziyyətlə bağlı olaraq bu yerləri tərk ediblər. Çünki Xankəndi onların ana vətəni deyil. Əgər öz torpaqları olsaydı, qalıb yaşayardılar. Azərbaycan yetərincə onlara şans verdi. Gəlməyəcəklərsə, onlara yalvarmaq fikrində deyilik. Xankəndidə yaşamaq istəyən çoxlu sayda vətəndaşlarımız var ki, qayıdış proqramı çərçivəsində köçüb öz ata-baba yurdlarında yaşamağı gözləyirlər. Xankəndinin azərbaycanlılarla məskunlaşdırılmasında heç bir problem görmürəm. İlkin olaraq o ərazilərdə yaşamış, qeydiyyatı olmuş vətəndaşlarımızın köçü təmin olunacaq. Bundan sonra kimlərin köçürülməsi lazımdırsa, köç davam edəcək. Bizi də köçürtsələr sevinə-sevinə gedib orada yaşayaram.

***- Sülh danışıqlarının mövcud durumu nədir? Zəngəzur dəhlizinin açılması istiqamətində gedən proseslər necə inkişaf edir?***

- Sülh müqaviləsi bağlanmalı, Zəngəzur dəhlizi gec-tez açılmalıdır. Cənab Prezident öz çıxışlarında dəfələrlə bunu vurğulayıb. Çünki bu dəhliz tək Azərbaycan-Ermənistan üçün deyil, şərqin qərblə birləşdirilməsi, ticari əlaqələrin böyüməsi deməkdir. Bu da bütün dövlətlərin marağındadır. Ermənistanın mövqesiz davranışı, müstəqil siyasət yürüdə bilməməsi dəhlizin açılması məsələsini, sülh müqaviləsinin bağlanmasını ləngidir. Maraqları toqquşan, bölgədən qat-qat uzaqda olan dövlətlərin heç nə əldə edə bilməyəcəkləri özlərinə aydın olandan sonra bölgə dövlətlərin maraqları nəzərə alınaraq məsələ həll olunmalıdır.

Dəhlizin açılması Ermənistana daha çox lazımdır. Ermənistan bunu dərk edir, amma dediyim kimi, sərbəst addım ata bilmədiklərinə görə hələlik gərginlik yaratmaqla məşğuldur. İnanıram ki, o layihə baş tutacaq.

***- ABŞ-ın «907-ci düzəliş»i dirçəltməsi, Fransanın Ermənistanı silahlandırması, Zəngəzur dəhlizinin açılmasına qarşı təzyiqləri nə dərəcədə təsirli edə bilər və bu gün Azərbaycanın olduğu durum bu prosesdən nə dərəcədə uğurlu keçmək imkanı yaradır?***

- Nə qədər təsir göstərsələr də, Ermənistan ictimaiyyəti Azərbaycan dövləti, xalqı ilə dinc qonşuluq siyasətindən başqa çıxış yolunun olmadığını görür. Ermənistan başa düşməlidir ki, Fransa, Almaniya, ABŞ onun "qara gözünə" vurulmayıb. Eləcə də Ermənistan daxilində olan antiAzərbaycan qüvvələri də xarici güclərə rəvac verərək prosesi sülh prosesini ləngidirlər. Bunun da bir sonu olmalıdır.

Biz 30 il çalışıb torpaqları sülh yolu ilə işğaldan azad edə bilmədik. Nəhayət, 44 günlük savaşla problemi kökündən həll etdik. Ermənistan kapitulyasiya aktına imza atdı, amma 3 il vaxt keçsə də, o ərazilərdə olan qeyri-qanuni silahlı birləşmələrini çıxarmadı. Azərbaycan 23 saat, 3 dəqiqəlik antiterror əməliyyatı ilə bu məsələni də həll etdi. Çünki Azərbaycan haqlı tərəfdir. Haqq ədalət nazilər, amma üzülməz. Azərbaycan həmişə qonşuluq siyasətini yüksək səviyyədə qurmağa çalışan tərəfdir. Bütün qonşu, ətraf dövlətlərlə uğurlu əlaqələrin qurulması istiqamətində addımlar atıb. Bu danılmazdır. Ermənistan bunları dərk etməsə, biz yenə də öz haqqımızı müdafiə etməyə qadirik və hesab edirəm ki, bütün məsələlər öz həllini tapacaq.

*✍ Tahirə Qafarlı*

# Ermənistanda vətəndaş müharibəsi təhlükəsi realdır

◂ əvvəli 3-cü səhifədə

Şurtvastların imza atdıqları Rusiya-Ermənistan Sazişi əsasında ruslar onsuz da bütün Ermənistanı ermənilərin əlindən alıblar. Ermənistan sərhədlərini də onlar qoruyur. Vəziyyət elədir ki, ermənilər bir balaca da atılıb-düşsələr, Ermənistanı Belarus kimi İttifaq dövlətinə çevirəcəklər. Dərinə gedəndə görürük ki, Paşinyan özü də bilmədən ölkəsini bu İttifaqa yuvarlayır. Qərbin ona kömək olacağı isə demaqogiyadan başqa heç nə deyil...

Rusiya-Azərbaycan münasibətlərində əsas məsələ tranzit yollarının, o cümlədən Zəngəzurun işləməsidir. Bu, Türkiyə-Rusiya münasibətlərinin də iqtisadi əsasını yaradır. Bundan əlavə, tranzit yollarının dollarla işləməsi ABŞ-nin iqtisadi marağındadır.

Təsəvvür edirsiniz, Zəngəzur yolunun açılmasından sonra ABŞ-nin nə qədər dolları dövriyyədə olacaq və bu, ona nə qədər gəlir gətirəcək. Bizlər bilməliyik ki, dünyada gedən bütün proseslərin əsasında iqtisadi maraqlar durur. Bu maraqları təhlil etdikdən sonra, yaxın gələcəkdə ABŞ-nin Azərbaycana qarşı münasibətinin müsbət olacağını əvvəlcədən qeyd etmək olar.

***- Ermənilər iddia edir ki, guya Azərbaycan-Ermənistan sərhədindən 100 mindən çox erməni keçib. Azərbaycan dövləti isə rəsmi rəqəm açıqlamayıb. Sizcə, Qarabağdan köçmüş ermənilərin əsl sayı təxminən nə qədərdir?***

- Qarabağdakı ermənilərin sayını üç il bundan əvvəl V.Putin demişdi: 48 min nəfər. Ermənilərin köçənlərin sayını 100 min deməsinin Azərbaycana heç bir siyasi zərbəsi yoxdur, əksinə, Azərbaycan ordusunun 23 saata həyata keçirdiyi əməliyyatının dolayısıyla ermənilər tərəfindən reklamıdır. Elə Rusiya hərbçilərinin əliylə yaxşı silahlandırılmış 15 minlik erməni ordusunun məğlubiyyətinin etirafıdır... Bu rəqəmlə Ermənistan Qərbi aldadır və oradan pul qoparır...

***- Hesab etmirsiz ki, nə qədər ki, sülh müqaviləsi imzalanmayıb, Qarabağdan əksəriyyətinin qəlbində kin-kudurət potensialıyla getmiş bu şurtvats köçü (100 min olmasın, lap 40-50 min olsun) bu gün və gələcəkdə istər Rusiyanın, istərsə də Qərb dövlətlərinin əlində Azərbaycana qarşı təzyiq aləti olacaq?***

- Heç bir təzyiq olmayacaq. Əksinə, Ermənistandan qaçqın düşmüş azərbaycanlıların gerçək sayı ortaya çıxır, ermənilərin isə göstərdiyi sayın yalan olduğu qeyd olunur. Bunu Qərb ölkələrinin mediasında da görmək olar. Azərbaycana 1918-ci ildə Fransada çap olunmuş xəritədəki Azərbaycan əraziləri lazımdır, çünki Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin sələfidir. Azərbaycana qarşı ABŞ sanksiya təzyiqi onunla qurtardı ki, ABŞ Dövlət katibi Azərbaycan Prezidentinə zəng vurdu və xahişlər etdi. Nəticəsi o oldu ki, Azərbaycanın bütün tələblərini yerinə yetirəcəyinə söz verdi...

***- Necə düşünürsüz, Qarabağdan köçmüş ermənilərin kütləvi şəkildə geri qayıtması ehtimalı varmı?***

- Hesab edirəm ki, şurtvatslar, yəni Qarabağdan getmiş ermənilər heç vaxt geri qayıtmayacaqlar. Çünki onların qayıtması birbaşa 1988-1989-cu illərdə tarixi Qərbi Azərbaycandan zorla qovulmuş soydaşlarımızın Ermənistana qayıtmaları ilə bağlıdır. Yəni Qarabağa ermənilərin qayıtmasının qarşısını azərbaycanlıların Ermənistana qayıtması planı alır. Azərbaycan tərəfinin Ermənistana qarşı haqlı iddialarından biri də budur. Bunu Rusiya tərəfi də istəyir. Odur ki, Azərbaycan üçün ən düzgün seçim, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsaslanmaqdır. Ona görə ki, Azərbaycan artıq ABŞ və Avropa İttifaqının təkliflərini qəbul etmir və Ermənistanla sülh müqaviləsinin onların məkanında imzalanmasını müzakirə etmir....

İkincisi də, artıq Paşinyan 49 min qaçqın ailəsi üçün İrəvan ətrafında göydələnlər tikdirir. Belə olduğu halda, hansı başında azca ağıl olan erməni donuz otarmaq üçün Qarabağa qayıdar?.. Şurtvastların Ermənistanda məskunlaşması Azərbaycanın siyasi marağındadır, odur ki, bu məsələni hallandırmır...

***- Sizcə, Azərbaycan üçün Ermənistanla sülh sazişinin Rusiyanın, yoxsa Qərbin moderatorluğuyla imzalanması daha məqbul, daha zəmanətli olar? Bəlkə vasitəçisiz imzalayaq sülh sazişini?***

- Azərbaycan üçün sülh müqaviləsinin 10 noyabr razılaşması əsasında bağlanması daha məqsədəuyğundur. Çünki ancaq bu saziş vasitəsilə Azərbaycanın zəbt olunmuş və yaxud Sovet dövründə Ermənistana verilmiş torpaqlarını, o cümlədən, Zəngəzuru qaytarmaq olar.



Fərqi yoxdur, harada və kimin iştirakı ilə. Qərb isə bizdən Sovet dövrünün 1975-ci il xəritəsi əsasında sülh müqaviləsinin bağlanmasını istəyir. Bu cür müqavilə Azərbaycanın marağında olmadığından hörmətli Prezidentimiz Avropaya və ABŞ-a müzakirələrə getmir və Ermənistanın 10 noyabr sazişinin şərtlərinə əməl etməsini tələb edir. Haqlı tələbdir...

***- XIX əsrin əvvəllərindən bəri Azərbaycana qarşı erməni məsələsini, erməni separatizmini, erməni işğalını Rusiya təşkil edibsə, onun himayəsi altında imzalanacaq sülhə necə etibar etmək olar? Kim zəmanət verir ki, 20-30 ildən sonra geosiyasi durum dəyişərsə, həmin vaxtadək varlığını qoruyub saxlayacaq Rusiya imperiyasının Türkiyə ilə münasibətləri korlanarsa, Moskva yenidən Ermənistanı Azərbaycan torpaqlarının işğalına təhrik etməyəcək?***

- Hər dövrün öz tələbləri var. Son 30 il göstərdi ki, Azərbaycan öz suverenliyini qorumaq üçün daim silahlanmalı və ancaq özünə arxalanmalıdır. Belə olduqda, geosiyasi vəziyyət dəyişsə də, ölkənin özünü müdafiə mexanizmi olduğundan heç bir ölkə onun işinə qarışa bilməz. Prezident İlham Əliyevin yaratdığı müdafiə mexanizmi qüsursuz işləyir və geosiyasi balansı saxlamağa şərait yaradır.

Rusiya-Türkiyə münasibətlərinin davamı və ya korlanması isə bu işlək mexanizmə heç bir mənfi təsir göstərə bilməz. Biz anlamalıyıq ki, həqiqətən müstəqil dövlətik və müstəqilliyini qoruyan xalq elə özümüzük: qüdrətli Azərbaycan ordusu və əsgəridir.

Türkiyə-Rusiya münasibətlərinə gəlincə, onlar Atatürk-Lenin doktrinasını həyata keçirirlər. Tamlığı ilə buna nail olsalar, daha Ermənistan tərəfdən Azərbaycana qarşı heç bir təhlükə yarana bilməyəcək. Bütün hallarda Azərbaycan istər Türkiyədən, istərsə də Rusiyadan asılı vəziyyətdə olmayacaq...

*✍ Sultan Laçın*

# Qarabağ Universitetində fəaliyyətə başlamağı səbrsizliklə gözləyirəm



**Mail Alacanov,**
ADPU-nun Şamaxı filialının Sosial və xüsusi fənlər kafedrasının müdiri

***Azərbaycan torpaqları sentyabrın 19-da başlayan və 23 saat davam edən lokal antirerror tədbirindən sonra Xankəndi və Qarabağın digər əraziləri qanunsuz silahlı erməni birləşmələrindən təmizləndi. Qarabağ ərazisində Azərbaycanın suverenliyinin tam təmin edilməsi bu torpaqlara yeni nəfəs gətirdi. Müharibədən, girovluqdan çıxan Xankəndi şəhərinin gələcəyinin elm və təhsillə təminatı istiqamətində əsaslı işlərə başlanıb.***

## Müsahib

Prezidentin sərəncamı ilə Xankəndidə Qarabağ Universitetinin təsis edilməsi vaxtilə Xankəndidə fəaliyyət göstərən ziyalılarımız, müəllimlərimiz tərəfindən xüsusi vurğu ilə qeyd olunur. "Həftə içi" qəzetinə müsahibə verən, bir zamanlar Xankəndi Pedoqoji İnstitututda müəllim, daha sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (ADPİ) Şuşa filialının direktoru işləmiş, hazırda Azərbaycan Dövlət Pedoqoji Universiteti Şamaxı filialının Sosial və xüsusi fənlər kafedrasının müdiri vəzifəsində işləyən Mail Alacanov maraqlı məqamlara toxunub.

*Qarabağın azadlığı üçün könüllü döyüşə gedən gənclər, indi təhsil almaq üçün də "Qarabağ!" deyəcəklər*

***- Xankəndidə vaxtılə fəaliyyət göstərən Pedaqoji İnstitunun müəllimi kimi bu gün Prezidentin sərəncamı ilə Qarabağ Universitetinin yaradılmasının mənəvi, tarixi aspektlərini necə dəyərləndirərdiniz?***

- Fəxr edirəm ki, bu gün Azərbaycanda, bir gün ərzində işğaldan azad olunmuş şəhərimizdə - Xankəndidə, İbrahimxəlil xanın yurdunda yeni ali məktəb yaradılıb. Mən səbirsizliklə yenidən gedib Xankəndidə bərpa olunan universitetdə fəaliyyət göstərəcəyim günü gözləyirəm. 1979-88-ci illərdə Xankəndidə Pedaqoji İnstitutda fəaliyyət göstərmişəm. Xankəndi Pedaqoji İnstitutu 1969-cu ildə Azərbaycan SSR-nin Xankəndi şəhərində yaradılıb. Əvvəlcə Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi fəaliyyət göstərib. 1973-cü ildə müstəqil ali məktəbə çevrilib. İnstitutda Azərbaycan, erməni və rus dili şöbələrində müəllim kadrları hazırlanırdı. Xankəndi Pedoqoji İnstitutunda tədris 3 dildə aparıldığı üçün azərbaycanlı tələblər ermənilərlə bir yerdə təhsil alırdı. 1988-ci ilin oktyabrın 18-də keçmiş Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrə görə SSRİ Nazirlər Kabinetinin qərarı ilə İnstitutda Azərbaycan bölməsi bağlandı. Həmin Pedaqoji İnstitut Qarabağda milli kadrların hazırlanmasında müstəsna xidmətləri olan ali məktəb kimi fəaliyyət göstərib. Xankəndi ali məktəbində 40 nəfərə qədər professor-müəllim heyəti çalışmış, çox yüksək pedaqoji kadrların yetişməsində, tərbiyə olunmasında böyük rol oynamışlar.

Çox şadam ki, bu gün bizim azad olunmuş ərazimizdə müstəqil fəaliyyət göstərən Qarabağ Universiteti bərpa olunur. Qarabağın azad olunmuş ərazilərində, hər yerdə bərpa-quruculuq işləri gedir və köçkünlər öz doğma kəndlərinə, şəhər və qəsəbələrə qayıdırlar. Mən inanıram ki, Qarabağ Universitetinin yaradılması cənab Prezidentin vaxtında verdiyi sərəncamlardan biridir. Həmin ali məktəbdə çalışan keçmiş həmkarlarım və yeni gənc nəslin nümayəndələri, hazırda çalışdığım Pedaqoji Universitetin Şamaxı filialının kollektivi bir nəfər kimi, Qarabağ Universitetinə gedib əmək fəaliyyətini davam etdirməyə hazırdırlar.

***- 1979-1988-ci illərdə Xankəndidə fəaliyyət göstərən Pedaqoji İnstitutla müqayisədə, sizcə bu gün Qarabağ Universiteti necə formalaşmalıdır?***

- Qeyd etdiyim kimi, çalışdığım dövrdə institutda üç bölmə fəaliyyət göstərirdi - Azərbaycan, rus və erməni bölməsi. Düşünürəm ki, bundan sonra yalnız Azərbaycan bölməsi fəaliyyət göstərəcək. Bir müəllim kimi hesab edirəm ki, orada Qarabağ tarixini, onun ədəbi mühitini, arxeologiyasını, etnoqrafiyasını, faunasını, florasını öyrənmək, geniş elmi tədqiqat işləri aparmaq üçün kadrlara ehtiyacımız olacaq. Yeni açılan universitetdə müasir sahələri öyrədən ixtisaslar yaradılmalıdır. Bu, Qarabağımıza mütləq lazımdır.

***- Birbaşa tələbə-gənclərlə təmaslarda olan bir mütəxəssis olaraq necə hesab edirsiniz: Qarabağ Universiteti, orada fəaliyyət göstərmək gənclərimiz üçün nə dərəcədə maraqlı olacaq?***

- Tam səmimiyyətimlə deyirəm ki, bu sərəncam böyük coşqu ilə qarşılandı. Başqa cür ola da bilməzdi. Hər bir gənc Qarabağda gedən döyüşlərə könüllü qatılırdı. Böyük sevgi ilə Qarabağı düşməndən azad etmək üçün cəbhəyə gedən, torpaq uğrunda savaşan gənc əsgər, sizcə, təhsilini azad etdiyi torpaqlarda davam etdirmək istəməz? Əksinə, dünən daha çox Bakıda, Gəncədə oxumaq istəyən gənclər, sabah universitet seçimində birinci Qarabağ Universitetini yazacaqlar. Dünən Qarabağın azadlığı üçün könüllü döyüşə gedən gənclər, indi təhsil almaq üçün də "Qarabağ!" deyəcəklər. Qarabağ müharibəsi göstərdi ki, bizim gənclərimiz xalqımızın milli adətlərini, torpağını heç vaxt unutmur. Torpağı, vətənləri uğrunda son nəfəsə qədər vuruşublar, vuruşacaqlar, təhsil alacaqlar və həqiqətlərin dünyaya çatdırılması üçün əllərindən gələni edəcəklər.

Vətən müharibəsi Azərbaycan gənclərinin bütün sistemini, ruhunu, potensialını üzə çıxardı. 200 ildə görə bilmədiyimiz işləri 44 gündə Ali Baş Komandan başda olmaqla gördük. Bu, bizim gəncliyimizin xalqına, elinə, obasına, dövlətinə bağlılığı və milli dəyərlərimizə verdikləri ən böyük qiymətdir. Azərbaycan gənclərinin göstərdiyi şücaət, əslində, təhsilimizin gücüdür, Azərbaycan övladlarının qəhrəmanlığı milli keçmişdən, qürur mənbəyimizdən qidalanıb bu gün torpaqlarımız uğrunda silaha sarıldı və yağı düşməni darmadağın etdi. Buna bizim gənclərimiz, onların fədakarlığı, cəsarəti, qəhrəmanlığı nail oldu. Həmin dövrdə yetişən gənclərimiz, həmin dövrdə Qarabağda təhsil alan və müxtəlif sahələrdə çalışan gənclərin tərbiyə etdiyi gənclər bu gün Qarabağı azad etdilər.

### Yeri gəlmişkən...

***Qeyd:** 1988-ci ildə Qarabağda baş verən erməni qiyamı zamanı institutun Azərbaycan şöbəsinin müəllim və tələbələri 1988-ci il may ayının 16-da Şuşa şəhərinə sığınmağa məcbur olublar. Bir müddət sonra 100 nəfərlik professor-müəllim kollektivi və 1200 tələbə Gəncə Pedaqoji İnstitutuna köçürülüb. Amma bir ilə yaxın Gəncədə fəaliyyət göstərən pedaqoji kollektivin təkidli tələbi ilə şöbənin Şuşaya köçürülməsi qərara alınıb. 1989-cu il oktyabrın 25-də pedaqoji kollektiv Şuşaya köçürülüb.*

*Azərbaycan SSR Xalq Təhsili Nazirliyinin 01 noyabr 1989-cu il tarixli əmrinə əsasən, Şuşada Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin əsasında Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (ADPİ) Şuşa fakültəsi yaradılıb. 22 fevral 1991-ci ildə fakültənin ADPU-nun Şuşa filialına çevrilməsi ilə bağlı qərar qəbul edilib. 1992-ci ilin mart ayının 25-də filialın kollektivi müvəqqəti olaraq Ağcabədi şəhərinə köçürülüb. Daha sonra ADPU-nun Şuşa filialı 2000-ci ildə ləğv edilib və onun bazasında Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialı yaradılıb.*

*2015-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutunun ADPU-ya birləşməsi və onun filiallarının ADPU-nun strukturuna çevrilməsi nəticəsində ADPU ölkədə pedaqoji kadr hazırlığı ilə məşğul olan əsas ixtisaslaşmış ali təhsil müəssisəsinə çevrilib. Ağcabədi filialı yenidən ADPU-ya verilib və hazırda da filial fəaliyyətini davam etdirir.*

***✍ Tahirə Qafarlı***

## Reytinq

***Azərbaycan uzunömürlülərin sayına görə dünyada əhəmiyyətli dərəcədə geriləyib. Dünya İqtisadi Forumunun "Qlobal Gender Fərqi" indeksinə görə, Azərbaycan bu siyahıda146 ölkə arasında 101-ci yerdə qərarlaşıb. Bu barədə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, İqtisadiyyat Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının Əhali Fondunun birgə hazırladığı "Azərbaycanda DİM-in Maliyyələşdirilməsi" ilə bağlı dərc olunan hesabatında qeyd olunub. İqtisadi iştirakçılıq və imkanlara görə, Azərbaycan 146 ölkə arasında 36-cı, təhsil nailiyyətinə görə 55-ci, siyasi səlahiyyətlərə görə 135, sağlamlıq və uzunömürlülüyə görə 144-cü yerdə qərarlaşıb.***

# Uzunömürlülər siyahısında son pillələrdəyik

Qeyd edək ki, bu indeks müxtəlif ölkələrdə qadınların iqtisadi iştirakı, imkanları, təhsil səviyyəsi, sağlamlıq, uzunömürlülük və s. göstəricilərinə əsasən, onların rifahının müqayisəli təhlili əsasında hazırlanıb.

Əslində sovet dövründə Azərbaycan əhalinin uzunömürlülüyünə görə fərqlənən ölkələrdən idi. Uzunömürlü insanlara əsasən dağlıq və dağətəyi rayonlarda rast gəlinirdi. Çünki bu bölgələrdə insanlar çirkli atmosferdən uzaq, təmiz dağ havasında yaşayır, qidalanmaya gəldikdə isə daha çox əkib becərdikləri təmiz məhsullardan istifadə edirdilər. Məlumatlara görə, Azərbaycanda hazırda uzunömürlü insanların üstünlük təşkil etdiyi Talış bölgəsi, İsmayıllı, Gədəbəy, Tovuz, Quba rayonlarıdır. İndiyədək Azərbaycanın ən uzunömürlü sakini 168 yaşlı Şirəli Müslümov olub ki, o da "Ginnesin Rekordlar Kitabı"na daxil edilib.



*Azərbaycanda insanlar ahıllıq və qocalıq dövrünü keçib, uzunömürlülük yaşına çata bilmir*

Son illərdə əhalinin siyahıyaalınmasında 90 yaşdan yuxarı insanların ötən əsrlə müqayisədə azaldığı, eyni zamanda 85 yaşdan yuxarı yaşlarda ölüm hallarının çoxaldığı müşahidə olunur. Dövlət Statistika Komitəsindən bildirilib ki, 2023-cü il yanvarın 1-nə olan məlumata görə, respublikamızda 100 və yuxarı yaşda əhalinin sayı 1021 nəfər olub. Onların 381 nəfərini kişilər, 640 nəfərini isə qadınlar təşkil edir.

2022-ci ildə Azərbaycanda ömür göstəricisi əhali üzrə 76 yaş, o cümlədən kişilərdə 73.6, qadınlarda 78.4 yaş olub.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünyada ən uzunömürlü insanlar hazırda Yaponiyada yaşayırlar. Müşahidələr göstərir ki, yaponlar 75 il qüsursuz yaşaya bilirlər. Bu, onların sağlam və aktiv həyat tərzi ilə bağlıdır.

Bəs, görəsən, Azərbaycanda uzunömürlülərin sayının azalmasına səbəb nədir? Bu məsələdə dünya ölkələri ilə müqayisədə niyə sonuncu pillələrdəyik?

**■ Mövzu ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru, herontologiya üzrə mütəxəssis Zenfira Qədimova deyib ki, insanların sağlam <https://xanim.az/saglamliq-xeberleri/> və uzunömürlü yaşaması problemi bəşər tarixi boyunca tibb və biologiya elminin daim diqqət mərkəzində olub:** "Ölkələrin bir çoxunda elmi-tədqiqat işləri aparılmaqla uzunömürlülüyün sirləri araşdırılaraq, həm də qocalma prosesinin mexanizmləri və səbəbləri öyrənilir. Hələ keçən əsrin əvvəllərindən bu sahədə tədqiqatlar aparılıb, indiyədək qocalma mexanizmləri haqqında müxtəlif nəzəriyyələr hazırlanıb. Bizim də herontoloq kimi qarşımıza qoyduğumuz məqsəd ölkə əhalisinin yaş strukturunda baş verən dəyişiklikləri öyrənmək, insan orqanizmində baş verən qocalma mexanizmlərinin sistemli analizlərini təhlil etməkdir. Məhz bu prinsip bütöv bir orqanizmin adaptiv, funksional və kompensator imkanlarını, davamlılığını qiymətləndirməyə əsas verir".

Mütəxəssisin sözlərinə görə, Azərbaycanda insanlar ahıllıq və qocalıq dövrünü keçib, uzunömürlülük yaşına çata bilmir: "İnsanlarımızın nə üçün ahıl və qoca yaş dövrünü keçə bilmədiyi ilə bağlı tədqiqatlar aparılır. Yaş təsnifatına görə 60-74 yaş intervalında olan şəxslər ahıl, 75-89-yaş intervalında olanlar qoca, yaşı 90-dan çox olanlar isə uzunömürlü hesab edilir. İnsan orqanizminin qocalması öz təbiətinə görə fizioloji proses olsa da, hazırkı dövrdə insanların qocalması ilk növbədə müxtəlif xəstəliklər fonunda yaranan patoloji və erkən qocalmadır. Xəstəliklər isə orqanizmin həyat fəaliyyətinin pozulmasına səbəb olur. Bu anlayışa əsaslanaraq, insan ömrünün uzadılması üsullarının tədqiqi mühüm dərəcədə patoloji qocalıqla mübarizəyə həsr olunmalıdır. Qocalma prosesində orqanizmin reaktivlik xüsusiyyətlərini aydınlaşdırmaq üçün uzunömürlülərdə fizioloji proseslərin gedişatını izləmək vacibdir. Ahıl və qoca yaşlılarla müqayisədə, uzunömürlülərdə patoloji qocalmanın sərt əlamətləri müşahidə olunmur".

Müsahibimiz bildirib ki, insanın sağlamlığında, uzun ömür yaşamasında birinci növbədə tibbi xidmətin rolu önəm daşıyır: "Finlandiya, Yaponiya, İtaliya və digər ölkələrdə uzunömürlülərin sayı artır. Həmin ölkələrdə səhiyyə xidməti yüksək səviyyədədir. Uzunömürlülük indeksi həmin ölkədə yaşayan ahıl və qocaların sayına nisbətdə hesablanır. Əhalinin ahıl və qoca yaşlı kontingentinin sayı çoxdursa və bu şəxslər daha sağlamdırsa, gələcəkdə onların uzun ömür sürmək, uzunömürlülük statusunu qazanmaq şansı daha çoxdur.

Ancaq bizim ölkəmizdə tibbi xidmət yüksək səviyyədə deyil. Hətta tədqiqat prosesində arterial təzyiqini yoxladığımız ahıllar ilk dəfə müayinə olunduqlarını bildirirlər. Ümumiyyətlə, ahıl və qoca yaşlı şəxslərdə kompleks xəstəliklər (arterial hipertoniya, şəkərli diabet, artrit, ateroskleroz, nevrotik mənşəli sindromlar və s.) daha çox rast gəlindiyindən onların uzun ömür yaşaması sual altına düşür və yaxın gələcək üçün uzunömürlülüyün fizioloji proqnozunu vermək bir qədər tərəddüd yaradır. Təəssüf ki, araşdırmalarda ahıl və qoca yaş kateqoriyasında olan şəxslər arasında tam fizioloji sağlam insana rast gələ bilmirik".

Tədqiqatçı qeyd edib ki, mənfi ekoloji amillər, qida rasionu, ürək-damar sistemində baş verən dəyişikliklər və qeyri-sağlam həyat tərzi fizioloji qocalığın gedişatına əks təsir göstərərək patoloji qocalığın formalaşmasına öz təsirini göstərir. Nəticədə Azərbaycan dünya ölkələri arasında uzunömürlülərin sayına görə ilbəil geriləyir.

***✍ Sevinc***



**■ "Ana və uşaq ölümü bizdə böyük problemdir". Bu fikirləri Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov parlamentdə "Ailə sağlamlığı və dəyərləri qanunvericilik aspektində" mövzusunda keçirilən ictimai dinləmədə bildirib.**

Komitə sədri qeyd edib ki, bununla bağlı ölkədə xeyli uğurlar qazanılsa da, hələ də inkişaf etmiş ölkələr səviyyəsində deyilik:

"Problemləri araşdırsaq, görərik ki, səhiyyə işçilərindən çox şey asılı olduğu kimi insanların özlərindən də asılıdır. Vaxtlı-vaxtında hamiləlik dövründə müayinələrə getməmək, səhiyyə gigiyenasının olmaması, erkən nikahlar və s. uşaq və qadın ölümlərini artırır".



**■ "Tərtər işi" ilə üzrə ittiham olunan polkovnik Vüsal Ələsgərov, sabiq qərargah rəisi, polkovnik-leytenant Rəşid Niftəliyev, MAXE əsgərlər - Ramil Qarayev və Rüstəm Ələsgərovun məhkəməsi başa çatıb. Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə keçirilən sonuncu iclasda hökm oxunub.**

Hökmə əsasən Rüstəm Ələsgərov 9 il 6 ay, Vüsal Ələsgərov, Rəşid Niftəliyev və Ramil Qarayev isə 5 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər. Qeyd edək ki, təqsirləndirilən şəxslər hərbi qulluqçulara işgəncə verməkdə, onları qanunsuz azadlıqdan məhrum etməkdə və vəzifə səlahiyyətlərini aşmaqda ittiham olunurlar.



**■ Qaz hasilatının daha kiçik hissəsi Azərbaycanın özündə istehlak olunduğundan ölkədə ixrac üçün mövcud olan təbii qaz ehtiyatlarının 2060-cı ilədək 35 faizədək artacağı proqnozlaşdırılır. Bu barədə Dünya Bankının "Azərbaycanın İqliminə və İnkişafına dair Hesabat"ında qeyd olunub.**

Hesabatda bildirilib ki, karbonsuzlaşdırma üçün yatırılan investisiyalar enerji sahəsində subsidiyaların aradan qaldırılması ilə müşayiət edilərsə, enerji sisteminin xərcləri yalnız bir qədər arta bilər. "Eyni zamanda, bu investisiyalar ölkədə təbii qaz istehlakının azalması prosesinin daha da davam etməsinə və ixrac üçün mövcud enerji ehtiyatlarının əhəmiyyətli dərəcədə artmasına imkan verəcək", - deyə hesabatda vurğulanıb.



**■ Bu ilin yanvar-sentyabr aylarında Bakı metropoliteni ilə sərnişin daşınmalarından əldə olunan gəlir 59 050,3 min manat təşkil edib, bu da illik müqayisədə 38,5% artım deməkdir.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ötən ilin müvafiq dövründə qeyd olunan göstərici 42 647,5 min manat səviyyəsində olub. Xatırladaq ki, hesabat dövründə Bakı metropoliteni ilə 156 790,4 min sərnişin daşınıb ki, bu da illik müqayisədə 6,9% çoxdur. Qeyd edək ki, 1967-ci il noyabrın 6-sında istifadəyə verilən Bakı metropoliteninin hazırda 27 stansiyası və 40,7 kilometr uzunluğunda 3 xətti var. Hazırda Bakı metropolitenində, konseptual inkişaf proqramına uyğun olaraq, tikinti işləri davam etdirilir.



**■ "Ukrayna NATO-ya daha da yaxınlaşır". Bunu NATO Baş katibi Yens Stoltenberq Brüsseldə keçirilən NATO-Ukrayna Şurası XİN rəhbərlərinin iclasından əvvəl Ukrayna XİN rəhbəri Dmitri Kuleba ilə birgə jurnalistlərə açıqlamasında deyib.**

"Bu görüşümüz Ukraynanın NATO-ya daha da yaxınlaşdığını nümayiş etdirir. Biz bu iclasda Ukraynanın NATO-ya üzvlüyü yolunu müzakirə edəcəyik. Bütün müttəfiqlərimiz razılaşırlar ki, Ukrayna NATO-nun üzvü olacaq. Biz üzvlüyə gedən yolu, islahatları müzakirə edəcəyik.

Həmçinin döyüş meydanındakı vəziyyəti və təcili ehtiyacları müzakirə edəcəyik. Fürsətdən istifadə edib Ukrayna silahlı qüvvələrinin, siyasi rəhbərliyinin və Ukrayna xalqının cəsarətinə və qətiyyətinə heyranlığımı bir daha vurğulayıram.



**■ Cari ilin III rübündə cəmi istehlak kreditləri üzrə kredit standartlarında yumşalma ötən rüb ilə müqayisədə azalıb. Bu barədə "APA" Azərbaycan Mərkəzi Bankın keçirdiyi "Kreditləşmə Fəaliyyətinə Dair Sorğunun Nəticələrinə" əsasən xəbər verir.**

Bildirilir ki, əməkhaqqı kreditləri üzrə standartlarda dəyişiklik olmasa da, kredit kartlar kartları üzrə kredit standartlarında yumşalmada artım və məişət avadanlıqlarının alınması üzrə kredit standartlarında isə sərtləşmə müşahidə edilmişdir. Banklar cari ilin son rübündə cəmi istehlak kreditləri üzrə standartlarda əhəmiyyətli dəyişikliyin olmayacağı qənaətində olsalar da, kredit kartları üzrə standartlarda yumşalmanın azalacağını və əməkhaqqı kartları üzrə kredit standartlarının yumşalacağını proqnoz edirlər.

# Əmlak bazarında qaydaları dəyişən qərar



*“Mənzil alan aztəminatlı ailələr daha çox çıxarışı olmayan həmin fərdi yaşayış evlərinə üz tuturdular*

*Hansı tikililərin, fərdi yaşayış evlərinin sənədləri qaydasında deyilsə, onlar işıq, qaz, su şəbəkələrinə qoşula bilmirlər*

***Son günlər paytaxt ərazisində yerləşən fərdi yaşayış evlərinin qiymətində artım müşahidə olunur. Belə ki, sentyabr ayı ilə müqayisədə hazırda Bakıətrafı ərazilərdə həyət evləri 3-7 min manat arası bahalaşıb. Əmlak ekspertlərinin sözlərinə görə, fərdi yaşayış evlərinin qiymətində müşahidə olunan artım bu ilin oktyabr ayının 1-də qanuna edilmiş dəyişikliklə əlaqəlidir. Yeri gəlmişkən xatırladaq ki, bu ilin oktyabrın 1-dən qüvvəyə minən qaydalara əsasən, Azərbaycanda icazəsiz tikilən obyektlərin kommunikasiya şəbəkəsinə qoşulması ilə bağlı cəzalar sərtləşdirilib. İcazəsiz tikilən obyektlərin, evlərin su, qaz, elektrik təchizatı və kanalizasiya şəbəkəsinə qoşulması qadağan olunub.***

## Aktual

Cinayət Məcəlləsinə edilən dəyişikliyə əsasən, tələblərin pozulmasına görə təbii qaz, su, kanalizasiya, elektrik və ya istilik enerjisi təchizatı müəssisələrinin vəzifəli şəxslərinin məsuliyyəti də nəzərdə tutulur. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən, tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan inşa edilmiş və ya tikilməkdə olan, habelə barəsində məlumatlandırma icraatı tətbiq olunan, lakin tikinti işlərinin başlanmasına həmin Məcəllənin 80.4-cü maddəsində nəzərdə tutulmuş əsas olmadan inşa edilmiş və ya tikilməkdə olan tikinti obyektlərinin qaz qurğularının qazpaylayıcı şəbəkəyə qoşulması qadağan edilir.

Qeyd edək ki, “Elektroenergetika haqqında” cari ilin may ayının 19-da təsdiq olunmuş yeni qanuna əsasən, elektrik enerjisi ilə təchiz edilməsi nəzərdə tutulan tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması ilə əlaqədar layihənin hazırlanmasına əsas verən, elektrik enerjisinin verilməsi ilə bağlı mühəndis-texniki parametrləri özündə əks etdirən texniki sənəd tələb olunur. Bəs görəsən, bahalaşmanın əmlak bazarına təsiri necə olacaq? Yeni qaydalar sənədsiz torpaq bazarını sıradan çıxaracaqmı?

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən əmlak eksperti Elnur Fərzəliyev deyib ki, hazırda çıxarışsız fərdi həyət evləri 2 qrupa bölünür:** “Ümumiyyətlə, çıxarışsız fərdi həyət evlərinin bir hissəsi sovet dövründən qalmış, bir hissəsi isə 90-cı illərdən sonra tikilmiş fərdi həyət evləridir ki, bu günə qədər onlara çıxarışın verilməsində yubanmalar yaranıb. Səbəblər müxtəlifdir. Sovet dövründən qalmış yaşayış məntəqələri, Bakının mərkəzi hissələrində və ətrafında olan yaşayış məntəqələridir ki, onların təyinatı sırf yaşayış təyinatlı ərazilər olsa da, hələ də o ərazilərə sənədlər verilməyib. Digər ərazilərdə isə tikinti aparılan fərdi həyət evləri, böyük massivlər, qəsəbələr salınsa da, çıxarışlar verilməyib. Bunun da müxtəlif səbəbləri var. Birincisi, tikinti aparılmış ərazilərin torpaqlarının yaşayış məntəqələri üçün deyil, digər təyinatlı olması, yəni kənd təsərrüfatı, neftin ərazisində olmasıdır ki, bu səbəbdən də torpaqlara çıxarış verilmir. Həmin torpaqlar alınan zaman vətəndaşlara müxtəlif qurumlar tərəfindən sənədlər verilib, vətəndaşlar bu sənədlər üzərində ayrılmış torpaqlar üzrə fərdi həyət evləri tikiblər. Yasamal, Alatava, keçmiş Papanin, Sovetski ərazilərinin böyük bir hissəsində də çıxarış yoxdur. Yəni bu evlərin yaşı 100 ildən artıq olsa da, bu günə qədər həmin ərazilərə çıxarış verilməyib. Bakı kəndləri, Abşeron ərazisi, Xırdalan, Masazır və digər yeni salınmış həyət evləri olan ərazilərin də böyük əksəriyyətində çıxarış yoxdur. Çıxarış almaq mümkün olsaydı, vətəndaşlar hansısa formada bunu alardılar. Bu ərazilərdə də problem ondadır ki, torpaqlar təyinatı üzrə deyil. Yəni fərdi həyət evləri, yaşayış massivləri tikiblər, amma onların təyinatı fərqlidir. Tutaq ki, burada olmalıdır əkinbiçin sahəsi, maldarlıq, heyvandarlıq və s. Hansı ki, hazırda bu təyinatla istifadə mümkün də deyil. Bu ilin oktyabr ayının 1-dən isə artıq tikilməkdə olan fərdi həyət evlərinə və torpaq sahələrinə kommunikasiya xətlərinin çəkilməsi qadağan olundu. Əmlak bazarında ən ucuz əmlaklar çıxarışı olmayan fərdi evləri idi ki, onların satış qiymətləri ortala hesabla minimum 30 mindən başlayaraq təqribən 100 min manata qədər dəyişirdi. Çıxarışlı evlərin satış qiymətləri isə daha bahadır. Bu baxımdan mənzil alan aztəminatlı ailələr daha çox çıxarışı olmayan həmin fərdi yaşayış evlərinə üz tuturdular”.

Ekspert qeyd edib ki, sənədsiz evlərlə bağlı təkcə vətəndaş deyil, həm də dövlət itirir: “Təbii ki, burada vətəndaşın itkisindən qat-qat çox, dövlət itkiləri var. Bu itkilərin qarşısının alınması üçün düşünürəm ki, həmin sənədsiz həyət evlərinə mütləq şəkildə sənədlər verilməlidir. Sənədlərin verilməsi üçün müəyyən prosedur qaydaları tələb olunur. Qeyd etdiyim kimi, həmin ərazilərə sənədlərin çıxarışların verilməməsinin bir səbəb də onların torpaqlarının təyinatı üzrə istifadə olunmamasıdır. Bununla bağlı da hansısa addımlar atılıb, təyinat dəyişikliyi baş verə bilər. Həmin evlərə çıxarışlar verilərsə, bu həm vətəndaş məmnuniyyətinə gətirib çıxarar, başqa bir tərəfdən isə dövlətimiz üçün qeyri-neft sektorundan, yəni daşınmaz əmlakdan daha böyük gəlirlərin gəlməsinə səbəb ola bilər”.

E.Fərzəliyev yeni dəyişikliyin həyət evlərinin qiymətinə təsir göstərdiyini də vurğulayıb: “Biz bunu gözləyirdik. Birmənalı olaraq əmlak bazarında çıxarışlı torpaqların və fərdi evlərin qiymətlərinin artması qaçılmaz idi. Başqa bir tərəfdən isə bu tip çıxarışsız torpaqlara və fərdi həyət evlərinə olan maraq azalıb ki, bu da öz növbəsində həmin əmlakların bazar dəyərinin aşağı enməsinə gətirib çıxarıb. Düşünürəm ki, yaxın zamanlarda çıxarışsız fərdi evlərinin və torpaq sahələrinin çıxarışlarla təmin olunmasına start veriləcək. Çünki bu, həm vətəndaş məmnuniyyətinə gətirib çıxara bilər, həm də vurğuladığım kimi dövlətin bu sahədə müəyyən qədər gəlirlər əldə etməsinə səbəb ola bilər”.

■ **Məsələ ilə bağlı əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı da deyib ki, torpaq bazarında qiymət artımı davam edəcək, hətta bir az da bahalaşacaq:** “Təbii ki, burada söhbət sənədləri qaydasında olan torpaq sahələrindən gedir. Biz bilirik ki, artıq tikinti şərtləri ağırlaşdırılıb, o cümlədən, fərdi yaşayış evlərinin tikintisi ilə bağlı şərtlər sərtləşdirilib. Oktyabr ayının 1-dən kommunal istiqamətdə qanunvericiliklə bağlı ciddi dəyişiklik oldu. Misal üçün, işıq, qaz, su şəbəkələrinə qoşulmaq yalnız sənədləri qanunvericiliyin tələbinə tam olaraq uyğun olan tikililər üçün mümkündür. Hansı tikililərin, fərdi yaşayış evlərinin sənədləri qaydasında deyilsə, onlar işıq, qaz, su şəbəkələrinə qoşula bilmirlər.

Yəni belə qaydalar vətəndaşları tədricən sövq edəcək ki, sənədli torpaq sahələrində ev tiksinlər. Bu isə, təbii ki, qiymətin artımına təsir göstərən amildir. Yəni sənədli torpaq sahələrinə tələb artdığından nəticə etibarilə torpaq sahələrinin qiyməti bahalaşır. Bu, eyni zamanda, sənədləri qaydasında olan fərdi yaşayış evlərinin də qiymətini artırır”.

*Sevinc*

## İqtisadiyyat



# Bakının istehsal yükü azaldılmalıdır

***Bu gün Azərbaycanın inkişaf strategiyasının əsas xətti yalnız paytaxt Bakı və Abşeron yarımadası ilə məhdudlaşmır. Regionların sosial-iqtisadi inkişafı da dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Amma buna baxmayaraq hələ də Bakı ilə regionlarımız arasında böyük bir iqtisadi uçurum mövcuddur. Müşahidələr göstərir ki, bölgələrdə iş yerlərinin sayı yetərli deyil, əməkhaqqı paytaxtla müqayisədə az qala 2 dəfəyə yaxın aşağıdır, özəl sektorun inkişafı zəifdir və s. Başqa sözlə, urbanizasiyanın qarşısını almaq üçün bölgələrdə yetərincə alət mövcud deyil. Bütün bunların nəticəsi olaraq paytaxt Bakı yüklənməkdə davam edir.***

Yeri gəlmişkən, 2023-cü ilin doqquz ayı ərzində ölkədə açılan iş yerlərinin sayına nəzər salsaq görərik ki, bölgələr bu məsələdə paytaxtdan yenə də geri qalır. Belə ki, bu ilin 9 ayında ölkəmizdə 60,9 min yeni iş yerləri açılıb. Bu dövrdə iş yerlərinin 92,6 faizi qeyri-dövlət sektorunda açılıb. Amma yeni açılan iş yerlərinin 80,4 faizi Bakı şəhərinin payına düşüb. Dövlət Statistika Komitəsinin məlumatına görə, yeni açılan iş yerlərinin 1,2 faizi Naxçıvan Muxtar Respublikasının, 18,4 faizi digər regionların, o cümlədən 3,6 faizi Abşeron-Xızı, 2,7 faizi Quba-Xaçmaz, 1,9 faizi Gəncə-Daşkəsən, 1,8 faizi Şəki-Zaqatala, 1,5 faizi Qazax-Tovuz, 1,4 faizi Mərkəzi Aran, 1,4 faizi Şirvan-Salyan, 1,2 faizi Qarabağ, 0,9 faizi Lənkəran-Astara, 0,9 faizi Şərqi Zəngəzur, 0,6 faizi Dağlıq Şirvan, 0,5 faizi isə Mil-Muğan iqtisadi rayonlarının payına düşüb. Yeni açılan iş yerlərinin 9,1 faizi yeni yaradılan müəssisə və təşkilatlarda, 90,1 faizi mövcud müəssisə və təşkilatlarda, 0,4 faizi fəaliyyətini bərpa edən müəssisə və təşkilatlarda, 0,4 faizi isə digər müəssisələr üzrə yaradılıb. Bəs, görəsən, şəhərdən kəndə axın nə zaman başlayacaq? Bunun üçün hansı addımlar atılmalıdır? Bölgələrdə iş yerlərinin sayı niyə yetərli deyil?

*“Hökumət birinci növbədə ölkə iqtisadiyyatında yaranmış disbalansın aradan qaldırılması istiqamətində konkret addımlar atmalıdır*

*Yeni iş yerlərinin açılmasında dövlət tənzimləyici və stimullaşdırıcı rolda çıxış etməlidir*

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli deyib ki, bu gün ölkə iqtisadiyyatında yaranmış disbalans insanları kənddən şəhərə köçməyə məcbur edir:**

“Düzdür, son illər şəhərə gələnlərin sayında müəyyən qədər azalma var, amma bu nəzərəçarpacaq səviyyədə deyil. Çünki əhali bölgələrdə işləməyə iş tapmır. Qeyri-dövlət sektoru regionlarda fəaliyyət göstərməkdə maraqlı deyillər. Bunun da öz səbəbləri var. Və əsas səbəb də iqtisadiyyatımızda mövcud olan problemlərdən qaynaqlanır. Məsələn, Statistika Komitəsinin sonuncu statistik məlumatına görə, son doqquz ayda açılan iş yerlərinin 80 faiz Bakının payına düşüb. Əgər rayonda iş olsa, əhali paytaxta niyə gəlsin ki? Bu gün bölgələrdə bir grup insan var ki, onlar öz təsərrüfatını yaradıb, minimum da olsa qazanc əldə edə bilir. Amma əhalinin böyük əksəriyyəti bu şəraitə malik deyil. Ona görə də məcburiyyətdən Bakıya köç edirlər. Bakıda iş yerləri regionlara nisbətən çoxdur. Bunun da obyektiv, subyektiv səbəbləri var. Azərbaycan hökuməti birinci növbədə ölkə iqtisadiyyatında yaranmış disbalansın aradan qaldırılması istiqamətində konkret addımlar atmalıdır. Azərbaycanın dövlət büdcəsinin 90 faizdən çoxu Bakı və onun ətrafında, Sumqayıt, Abşeron da daxil olmaqla bu ərazidə formalaşıb. Ona görə də bu gün Azərbaycanın regionlarında əhali iş axtarır, amma iş tapa bilmir”.

Ekspert vurğulayıb ki, Azərbaycanda qeyri-neft iqtisadiyyatının zəif inkişafı və şaxələndirilməsi özünü regionlarda daha kəskin şəkildə göstərir: “Çünki paytaxtda resurslar müəyyən qədər bu çatışmazlığı kompensasiya edir. Ona görə də qeyri-təbii urbanizasiyanın qarşısını almaq üçün bölgələr üzrə iqtisadi göstəricilərin dəyişməsinə çalışmaq lazımdır. Bölgələrə daha çox investisiya yatırmaq, dövlətin təşəbbüslərindən başqa, sahibkarların, iş adamlarının da investisiya yatırmasına nail olmaq, rəqabət mühitinin yaxşılaşdırılmasına çalışmaq lazımdır.

Dünya praktikasında iqtisadi inkişafı və bundan irəli gələrək məskunlaşma səviyyəsini yüksəltmək üçün bir sıra güzəştlər tətbiq edilir. Tutaq ki, aşağı faizli kreditlər, vergi güzəştləri və s. Amma bu gün Azərbaycanda sahibkarlığın inkişafına mane olan müəyyən səbəblər mövcuddur. Bu problemlər aradan qaldırılmalıdır ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən yeni insanlar ortaya çıxsın, hətta xarici investorlar üçün Azərbaycan cəlbedici olsun. Əgər biz sahibkarlığın inkişafına mane oluruqsa, bu halda heç vaxt nə kütləvi şəkildə iş yerləri aça, nə də ölkədə əmək bazarının formalaşmasına nail ola bilərik. Bu problemin açarı bir qanunla, bir qərarla həll olunan iş deyil. Sahibkarlığın inkişafına mane olan problemlər aradan qaldırılandan sonra Azərbaycanın istənilən bölgəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan adamlar ortaya çıxacaq”.

■ **Məsələyə münasibət bildirən iqtisadçı Eyyub Kərimli hesab edir ki, bölgələrdə işsizliklə bağlı məsələnin həlli yalnız dövlətin öhdəliyi deyil, bura özəl sektorun bir fəaliyyəti olmalıdır:**

“Özəl sektor üçün münbit şərait yaradılmalıdır ki, bunu da dövlət müəyyən vergi güzəştləri ilə, ya da stimullaşdırıcı tədbirlərlə həyata keçirməlidir. Məsələn, kommunal xidmətlərin qiymətinin azaldılması, müəyyən vergi güzəştləri, ya da güzəştli kreditlər vasitəsilə daha çox bölgələrdə istehsal sahələrinin açılmasına, yeni iş yerlərinin açılmasına dəstək olmalıdır. Bu baxımdan, əlbəttə, bugünlərdə yeni iş yerlərinin açılması bölgələrin inkişafına daha müsbət təsir göstərərdi. Sözsüz, düşünürəm ki, bununla bağlı müəyyən proqramlar həyata keçirilir. Xüsusilə də kənd təsərrüfatı sahəsində uzunmüddətli güzəştli kreditlərin və stimullaşdırıcı tədbirlərlə bağlı maliyyələr ayrılır.

Həm də istehsal şahəsi ilə məşğul olan sahibkarlara da bu güzəştlər tətbiq edilməlidir. İrihəcmli istehsal sahələrinin açılması regionlarda daha da stimullaşdırılmalıdır. Digər tərəfdən, artıq regionların büdcədən dotasiyası ləğv olunub. Cəmi yeddi rayon dotasiya alır. Region rəhbərləri də xarici investisiyanın cəlb olunmasında daha maraqlı olmalıdırlar. Bu baxımdan, ciddi işlər həyata keçirilməlidir. Yeni iş yerlərinin açılmasında dövlət tənzimləyici və stimullaşdırıcı rolda çıxış etməlidir. Daha çox özəl sektorun həvəsləndirilməsi və şərait yaradılması ilə həyata keçirilməlidir. Yəni, bu məsələdə region rəhbərlərinin də üzərinə böyük məsuliyyət düşür. Yeni investorların cəlb edilməsinə, paytaxtdan investorların cəlb olunmasına şərait yaratmalıdırlar. Digər tərəfdən, hər rayonun spesifik xüsusiyyətlərinə uyğun mini istehsal və emal sahəsi durmalıdır. Əlbəttə ki, bəzi rayonlar var ki, burada emal sahəsinə üstünlük verilməlidir. Bu meyvəçilik, tərəvəz daha zəngin olan bölgələrə aiddir. Heyvandarlıq çox olan bölgələrdə biz ət məhsullarının istehsalı sahələrini qura bilərik. Müxtəlif sahədə çalışan sahibkarların regionlara cəlb olunmasına da elmi yanaşma olmalıdır”.

*Sevinc*

# “Hərbçilərin pensiya təminatında heç bir azalma olmayacaq”

**Hazırda parlamentin müzakirəsində olan yeni qanun layihələrində gizir, miçman və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları (MAXE) üçün xidmətdə olmanın son yaş həddinin 45-dən 48-ə çatdırılması təklifi öz əksini tapır.**

Bu barədə Müdafiə Nazirliyi tərəfindən yayılan məlumatda bildirilib. Bildirilib ki, yeni islahatın tərkib hissəsi kimi, hərbi qulluqçuların pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə tələbinin 20 təqvim ilindən 25 təqvim ilinə çatdırılması da nəzərdə tutulub.

Hazırda 25 təqvim ili hərbi xidməti olan hərbi qulluqçuların təminat xərcliyinin 60 faizini pensiya kimi alması, lakin yeni layihələr qəbul olunduğu halda bu xərcliyin 5 faiz çox olmaqla 65 faizini alacaqları, bununla da pensiya təminatında hər hansı azalmanın olmayacağı qeyd edilib. Bundan başqa, mülki işlərlə bağlı stajları olan hərbi qulluqçuların da həmin dövrün hər ili üçün 1 faiz əlavə hesablanması layihədə nəzərdə tutulub. Qeyd olunanlara yanaşı, azı, 17 təqvim ili xidmət etmiş hərbi qulluqçu 25 təqvim ilini tamamlayanadək xidmətdən buraxıldığı halda, onun əvvəlki normalara uyğun olaraq 20 təqvim ili xidmət etdiyinə görə hərbi qulluqçu kimi pensiya hüququ əldə etməsi, yəni ötən dövrdə qazanılmış pensiya hüquqlarının yeni dəyişikliklər qəbul edildikdən sonra da təmin olunması nəzərdə tutulub.



# Genetik testdən keçin!

**_Azərbaycanda ailə qurmaq istəyən şəxslərə genetik testdən keçmək tövsiyə olunur. Bu çağırışla Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, genetik Zakir Bayramov çıxış edib. O, nazirliyin rəsmi saytına verdiyi müsahibədə deyib ki, hər birimizin ailə qurmamışdan öncə genetik testdən keçməsi vacibdir: "Bunun üçün yaşın heç bir fərqi yoxdur. Müəyyən edilmiş genetik test insandan ömründə yalnız bir dəfə götürülür və ikinci dəfə nə zamansa götürülməsinə ehtiyac olmur. Ailə planlaşdırılmasında tibbi-genetik məsləhət və genetik testlər mühüm rol oynayır._**



"

*Genetik patologiyaları müəyyən etmək üçün müxtəlif genetik analiz üsulları istifadə olunur*

*Mutasiyalar aşkar olunduqda və düzgün korreksiya verdikdə nəticə müsbət olur*

## Səhiyyə

Onlar anadangəlmə xəstəliklərin və ya irsi yolla ötürülə bilən genetik patologiyaların risklərini müəyyən etməyə kömək edir. Həmçinin ailənin gələcək hamiləlikləri ilə bağlı əsaslandırılmış qərarların qəbul edilməsi doğulacaq uşaqların sağlamlığının qorunması üçün müvafiq üsullar seçməsinə imkan verir. Genetik testlər, eyni zamanda, valideynlərdə mümkün genetik problemləri müəyyən etməyə kömək edə bilər, onlara ailə planlamasında alternativ imkanlardan istifadə etməklə bağlı qərar verməyə şərait yaradır".

Mütəxəssis bildirir ki, genetik testlərin əksəriyyəti pasiyentə heç bir ağrı yaşatmadan götürülür: "Belə ki, nümunəni əldə etmək üçün ağız boşluğundan götürülən yaxma kifayət edir. Bunun üçün pasiyentin hansısa bir toxuması və ya bioloji material (tük soğanağı, dırnaq, dəri, skelet, toxuma parçası və s.) belə yetərlidir. Elə genetik testlər də var, onlar klassik üsulla - venoz damardan 2-5 ml qan götürülməklə həyata keçirilir".

Z.Bayramov həmçinin vurğulayıb ki, onkologiyanın müxtəlif növlərinə irsi meylinin müəyyən edilməsində genetik diaqnoz mühüm rol oynayır. Bu, müəyyən xərçəng növlərinin (döş, yumurtalıq, bağırsağ, prostat, ağciyər, dəri və s.) inkişaf riskinin artması ilə əlaqəli ola biləcək genlərdəki dəyişiklikləri müəyyən etməyə kömək edir.



**Jalə Əliyeva,**
həkim-genetik

Mütəxəssis genetik testlərin xəstəliyin diaqnozunu aydınlaşdırmağa və ya mümkün bir xəstəliyin qarşısını almağa kömək edəcəyini də söyləyib: "Lakin bunun üçün genetika mütəxəssisinə müraciət etmək tövsiyə olunur. Genetik testlərin sayı və müxtəlifliyi çox genişdir. Məhz buna görə də bu seçimi mütəxəssis özü etməlidir. Genetik patologiyalara genlərdəki mutasiyalar və ya xromosomlarda struktur və kəmiyyət dəyişiklikləri səbəb ola bilər. Genetik patologiyaları müəyyən etmək üçün müxtəlif genetik analiz üsulları istifadə olunur. Buraya genetik test, sitogenetik analiz, molekulyar diaqnostika, prenatal genetik skrininq, biokimyəvi testlər və s. aiddir". Maraqlıdır, görəsən bu gün Azərbaycanda genetik testlərin aktuallaşmasına səbəb nədir? Azərbaycanda genlə bağlı xəstəliklər nə dərəcədə yayılıb? Bu testlərin qiyməti neçəyədir?

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən həkim-genetik Jalə Əliyeva bildirib ki, vətandaşların bu testdən keçməsi müsbət hal olar:** "Yaxşı haldır ki, Azərbaycanda müayinə üçün laboratoriya var. Mutassiyalar aşkar olunduqda və düzgün korreksiya verdikdə nəticə müsbət olur. Azərbaycanda əsas yayılan gen xəstəliklərindən biri talassemiyadır. Bununla bağlı əsas endemik ocaq kimi Şəki-Qəbələ, Ağdaş zonasını qeyd etmək olar. Bu bölgələrdə daşıyıcı o qədər çoxdur ki, evlənənlər qohum olmasa da təsadüfən daşıyıcı ola bilərlər. Amma elə genetik xəstəliklər də var ki, həmin xəstəliklər əhalisi çox olan ölkələrdə rast gəlinir.

Yəni, hər bir populyasiya üçün özünəməxsus geniş yayılmış genetik xəstəliklər mövcuddur. Bir çox ölkələr üçün bu xəstəliklər ümumilik təşkil edir, lakın populyasiya içində yayılma tezlikləri müxtəlifdir. Genetik xəstəliklər ümumilikdə xromosom və gen xəstəlikləri olmaqla iki yerə bölünür. Xromosom xəstəliklər qrupuna Daun sindromu, Patau, Edvards, Klaynfelter, Törner və başqa sindromlar daxildir. Belə xəstəliklərdə xromosom saylarında və strukturlarında bu və digər dərəcədə dəyişikliklər olur. Nəzərə almalıyıq ki, normalda bizdə 46 xromosom var və qadınlar 46 XX, kişilər isə 46 XY xromosom dəstinə malikdirlər. Ən çox rast gəlinən xəstəliklər isə xromosomlarımızın sayı və strukturu ilə əlaqəli yox, yalnız mövcud olan 20 mindən artıq genlərimizdə baş verən hansısa bir dəyişikliklər zamanı meydana çıxır. Genlərin sayı xromosomlarımızın sayından dəfələrlə çox olduğu üçün gen xəstəliklərinin sayı da çoxdur. Onlara: talassemiya, G6PD (Qlükoza 6-fosfat dehidroqenaza), hemofiliya, daltonizm, SMA 1 və SMA 2 (Spinal muskular atrofiya), kistik fibro, fenilketonuriya, "Cri du chat" sindromu, Di Georq sindromu, mukopolisaxaridozlar, qlikogenozlar, gen mənşəli miopatiyalar, Fankoni anemiyası və başqaları aiddir".

Mütəxəssis qeyd edib ki, genetik testlər diaqnozu aydınlaşdırmağa və ya mümkün bir xəstəliyin qarşısını almağa kömək edir. Lakin bu testlərin qiyməti hər kəsin cibinə uyğun deyil: "Hazırda belə bir testdən keçmək istəyən pasiyent müayinə xərclərini özü qarşılayır. Bu müayinə növünü icbari tibbi sığorta qarşılamır. Genetik testdən keçmək istəyən pasiyent minimum 200 manat xərcləməlidir. Çünki bu tarama testinin avadanlığı, reaktivləri olduqca bahadır. Ona görə yaxşı olardı ki, genetik testlər də icbari tibbi sığorta tərəfindən qarşılansın. O zaman vətəndaşlar bu testlərdən keçməkdə daha maraqlı olacaqlar".

✍ *Sevinc*

## HƏFTƏ REYTİNQ

### Həftənin XƏYALPƏRƏSTİ



"Politico" nəşri "İlin xəyalpərəsti"ni seçib. Bu nominasiyaya Ukrayna Prezidenti Volodimir Zelenski uyğun görülüb.

Qeyd edək ki, bundan əvvəl nəşr 2023-cü ilin ən nüfuzlu siyasətçilərinin reytinqi ilə intriqa yaratmış, birinci yerdən başqa bütün liderləri dərc etmişdi. Söhbət Avropa liderləri arasında "1 nömrəli akt" nominasiyasından gedir. Belə ki, dördüncü yeri Ukrayna Prezident aparatının rəhbəri Andrey Yermak, üçüncü yeri Fransa lideri Emmanuel Makron, ikinci yeri isə Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Leyen tutub.

### Həftənin KURYOZU



Ermənistanın Baş naziri Nikol Paşinyanın hökumətin iclasında çıxışı zamanı işıq sönüb. Bu zaman Paşinyan çaşqınlıqla ətrafa baxıb. Bir neçə saniyədən sonra isə işıqlar yenidən yanıb. O, buna görə ölkənin ərazi idarəetmə və infrastruktur naziri Qnel Sanosyanı tənqid edib. Onun sözlərinə görə, ölkədə elektrik enerjisi keyfiyyətsizdir və hətta hökumət binalarında kabinetlərdə daima işıqlar əsir.

### Həftənin ARZUOLUNMAZI



Estoniya, Latviya və Litvanın XİN rəhbərləri ATƏT-in Xarici İşlər Nazirləri Şurasının Skopye şəhərində keçiriləcək iclasında iştirak etməkdən imtina ediblər. Məlumata görə, buna səbəb sözügedən iclasda Rusiyanın xarici işlər naziri Sergey Lavrovun iştirak etməsidir. Bununla yanaşı, Ukraynanın XİN rəhbəri Dmitri Kuleba da həmin iclasda iştirakdan imtina edib. Qeyd edək ki, ATƏT-in Xarici İşlər Nazirləri Şurasının iclası noyabrın 30-dan dekabrın 1-nə qədər Şimali Makedoniyada baş tutacaq.

### Həftənin İMTİNASI



Böyük Britaniyanın Baş naziri Rişi Sunak yunan həmkarı Kiriakos Mitsotakis ilə planlaşdırılan görüşdən imtina edib. Bu barədə Yunanıstanın Baş nazirinin saytında məlumat yayılıb. "Böyük Britaniyanın Baş naziri ilə planlaşdırılan görüşümüzün baş tutmasına bir neçə saat qalmış ləğv etməsindən narahatlığımı bildirirəm", - deyə Mitsotakis bildirib.

### Həftənin ƏN YAXŞILARI



XXI əsrin ən yaxşı 25 futbolçusunun adı məlum olub. Siyahını "FourFourTwo" nəşri tərtib edib. Siyahıya əsasən, I pillədə "İnter Mayami"nin futbolçusu Lionel Messi, II yerdə isə "əl-Nəsr"in oyunçusu Kriştiano Ronaldo yer alıb. Top onluqda sonrakı yerləri Andres İnyesta, Xavi, Ronaldinyo, Zinəddin Zidan, Thierry Henry, Manuel Noyer, Kaka, Luis Suarez tutub.

### Həftənin XƏSTƏSİ



Türkiyəli müğənni və aktrisa Hülya Avşar koronavirusa yoluxub. Bu barədə Türkiyə mətbuatı məlumat yayıb. Bildirilib ki, 60 yaşlı sənətçi müalicə almağa başladığı üçün bir müddət səhnədən uzaq qalacaq.

✍ *Azad Əliyev*

# "Nar" Laçın şəhərində ilk mağazasını açdı! ®

**"Nar" Laçın şəhərində satış və xidmət mağazasını təqdim edən ilk mobil operator oldu. Şəhərin mərkəzində yerləşən mağazada nömrələrin satışı, bərpası və digər xidmətlərlə yanaşı, mobil telefonların, müxtəlif cihazların və aksesuarların satışı da həyata keçirilir.**

Yeni mağazanın açılışı ilə bağlı "Nar"ın Baş İcraçı Direktoru Qunnar Panke bildirib: "Laçın şəhərində mağazasını açan ilk mobil operator olmaqdan qürur duyuruq.

Artıq Laçında da "Nar"ın üstün müştəri xidmətləri və sərfəli qiymətlərindən yararlanmaq mümkündür. "Nar" Qarabağda öz infrastrukturunu sürətlə genişləndirməyə davam edəcək". Regionlara xüsusi diqqət və sərfəli qiymət "Nar"ın müştəriyönümlülük strategiyasının əsas istiqamətlərindən biridir. Mobil operator bölgələrdəki müştəriləri üçün özəl tariflər və yeni konsepsiyalı mağazalar təqdim edir. "Nar" mağazalarının geniş siyahısı və təklif olunan xidmətlər haqqında ətraflı məlumatı nar.az <https://www.nar.az/> ünvanından əldə edə bilərsiniz.



"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## GÜNÜN FOTOSU



**Argentinanın yeni prezidenti yəhudi olmaq qərarına gəldi**

"

## Xankəndidə Qarabağ Universiteti

**Kamran Əsədov,**
təhsil eksperti

Qarabağ Universiteti Azərbaycanın xüsusi təhsil göstəricilərinə malik olan ən böyük ali təhsil müəssisəsi olacaq.

▸▸ Səh. 4

## STATİSTİKA



■ **2023-cü ilin yanvar-oktyabr aylarında 229,1 min dkl viski və konyak istehsal olunub. Üzüm şərabının istehsalı isə 988 min dkl təşkil edib.**

Bu ilin 9 ayında ölkədə 1037,6 min dkl araq istehsal olunub. Pivə istehsalı isə 4679 min dkl təşkil edib. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 254,5 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları alıb.



▸▸ Səh. 6

# Uzunömürlülər siyahısında son pillələrdəyik